DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev
www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
№ 5 (310) / MAY 2017-Cİ İL

## BAKI OLİMPİYA STADİONUNDA IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ OLUB

### *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*



Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. On gün ərzində İslam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.

Mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri hərarətlə salamladılar.

Bu gün "Bakı-2017"nin uğurunu şərtləndirən iki amili xatırlatmaq yerinə düşər. Yarışların gedişi bir daha təsdiqlədi ki, Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara yüksək səviyyədə hazırlıq görülüb, ən incə detallar belə nəzərə alınıb. Bakının 16 idman arenası ötən on gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Əminliklə demək olar ki, Bakıda keçirilən Oyunlar İslamiadanın tarixinə möhtəşəm idman bayramı kimi yazıldı.

Oyunların uğurunu təmin edən digər mühüm amil son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. Azərbaycan ilk Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula-1 kimi mötəbər yarışlara uğurla ev sahibliyi edib, özünü dünyada idman ölkəsi olaraq tanıda bilib. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu.

Statistikaya diqqət yetirək: Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb.

"Bakı-2017"ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən çox media nümayəndəsi, o cümlədən Oyunların rəsmi media tərəfdaşı olan AZƏRTAC-ın 70-dək əməkdaşı işıqlandırıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək, yarışları birinci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olublar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılıb. Onlar, ümumilikdə, 26 medal - 11 qızıl, 12 gümüş və 3 bürünc əldə ediblər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı var.

Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri Oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirib.

Xatırladaq ki, yarışlarda Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları iştirak ediblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olundu.

davamı səh. 2

IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib



səh. 3

"Heydər Əliyev-gənclik-multikulturalizm" beynəlxalq konfransı Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti bəhrəsidir



səh. 5

Ramazan ayının başlanması ilə əlaqədar fətva verilib



səh. 6

MÜSƏLMAN ÖLKƏLƏRİ ARASINDA BİRLİK, HƏMRƏYLİK DÜNYADA SÜLHƏ BÖYÜK TÖHFƏ VERƏ BİLƏR



səh. 7

DQİDK SƏDRİNİN BİRİNCİ MÜAVİNİ, YAZIÇI-PUBLİSİST SƏYYAD ARAN "RƏSUL RZA" MÜKAFATI ALIB



səh. 9

Auqsburqdakı Azərbaycan, yaxud gələcəyimizə düşən işıq



səh. 11

# BAKI OLİMPİYA STADİONUNDA IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ OLUB

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib



əvvəli səh. 1

**Xanım Mehriban Əliyevanın çıxışı**

***- Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri İlham Əliyev,***
***İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi***
***Zati-aliləri Faisal Abdulaziz Al-Nasser,***
***İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,***
***Zati-aliləri,***
***İslam aləminin idmançıları,***
***Xanımlar və cənablar,***
***Hörmətli qonaqlar.***

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz!

Əziz həmvətənlər!

Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. Dördüncü İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar.

Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin, hamımız bu birliyi qoruyaq, İslam həmrəyliyini gücləndirək. Qoy, Allah bütün müsəlmanları qorusun!

Əziz dostlar, son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı.

İdmançılar, mən sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm və İslam aləminin tamaşaçılarına verdiyiniz sevincə görə sizə təşəkkürümü bildirirəm. Bu, sizin Oyunlar idi və sizin idman yarışlarında çıxışınız onları möhtəşəm etdi. Ümidvaram ki, Bakıdan ayrıldıqda ən xoş xatirələrinizi bütün həyatınız boyu əziz tutacaqsınız.

Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq, bizi bir daha fərəhləndirdi. Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək.

Son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi növbəti böyük qələbə oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq.

Mən xalqlar arasında həmrəylik əlaqələrini gücləndirən İslam aləminin idmançılarını Bakıda salamlamaq üçün yaratdığı fürsətə görə İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm.

Bu Oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi nüfuzunu daha da möhkəmləndirdi. Paytaxtımız İslam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu Oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir.

Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin – Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Dünyanın ən gözəl şəhərlərindən birində, Bakıda sizi görməkdən məmnun olduq. Biz açıq qəlblə sizi yenidən Azərbaycanda görməyimizi səmimiyyətlə arzulayırıq.

Əziz könüllülər, çox sağ olun: qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu Oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər "Bakı-2017"nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram.

Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: bu yay Formula-1 Azərbaycan Qran-Pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaq.

"Bakı-2017" Oyunlarının başa çatdığı bir anda, mən bu möhtəşəm tədbirdə iştirak etmiş hər bir şəxsə, idmançılara və tamaşaçılara, təşkilatçılara və könüllülərə təşəkkürümü bildirmək istəyirəm.

Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq.

Beləliklə, mən qürur hissi ilə IV Bakı İslam Həmrəyliyi Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

(Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

* * *

Sonra İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış etdi.

**Faisal Abdulaziz Al-Nasserin çıxışı**

***- Azərbaycan Respublikasının Prezidenti.***
***Zati-aliləri İlham Əliyev,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri***
***Zati-aliləri Mehriban Əliyeva,***
***İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,***
***Zati-aliləri,***
***İslam aləminin idmançıları,***
***Xanımlar və cənablar.***

Bu axşam keçirilən bağlanış mərasimi burada, Azərbaycanın paytaxtında möhtəşəm idman və dostluq bayramının başa çatmasından xəbər verir. Bakı dövlətlərimizin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd



qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələrimizi qeyd etmək məqsədilə yaradılmış gözəl şəraitləri təmin etdi.

Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Mən İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə "Bakı-2017"yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm.

Dörd ildən sonra "İstanbul-2021" Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram.

Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!

* * *

Monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək İstanbul şəhərindən görüntülərin, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirildi.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endirdilər.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser bayrağı Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, "İstanbul-2021" İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim etdi.

Bu səhnələr Benjamin Brittenin "The Young Person's Guide to the Orchestra" musiqisi, Rövşən Əsgərzadənin "Qəhrəmanlıq uvertürası" ilə müşayiət olundu.

Türkiyənin dövlət himni – "İstiqlal marşı" səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırıldı.

Bağlanış mərasimi "Birlik" adlı konsertlə davam etdi. Səmra Rəhimli, Nigar Camal, Miri Yusif, Səbinə Babayeva və Eldar maraqlı ifaları ilə tamaşaçılarda xoş ovqat yaratdılar. Rəngli döşəmədəki proyeksiyalar səhnəyə canlılıq gətirdi.

Tünzalə Ağayevanın ifasında "Sürət – 2017 Azərbaycan Qran-Prisi" mahnısı səsləndi. İfa zamanı 30 səhnə iştirakçısı Bakı şəhər halqasını təsvir edən əsas səhnədə işıqsaçan çubuqlarla rəqs etdi.

Müğənni "Birlik" konsertini "Bakı-2017"nin könüllülərinə həsr olunmuş "Salam Bakı" himni və "Mən azərbaycanlıyam" mahnısı ilə yekunlaşdırdı.

Yaddaşlarda dərin iz qoyan, artıq tarixə çevrilən IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi Bakı Olimpiya Stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatdı.

# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ QALİB İDMANÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRÜŞDƏ İŞTİRAK EDİB




Mayın 23-də "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri görüşdə iştirak ediblər.

Dövlətimizin başçısı görüşdə nitq söyləyib.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

-Əziz dostlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunları başa çatdı. Azərbaycan bu Oyunlarda növbəti qələbə qazandı. Bu parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edirəm və sizə yeni qələbələr, yeni uğurlar arzulayıram.

Bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Əlbəttə, biz hamımız yaxşı bilirik ki, bu qələbə təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır.

Bizim son nailiyyətlərimiz də deməyə əsas verir ki, bu qələbə təsadüfi qələbə deyil. Azərbaycan idmançıları 2015-ci ildə Avropa Oyunlarında 56 medal qazanmışlar və komanda hesabında ikinci yerə çıxa bilmişlər. Keçən il Yay Olimpiya Oyunlarında medalların sayı 18-ə çatdı. Bu, bizim Olimpiya Oyunlarında iştirakımızın tarixində ən böyük rəqəmdir və medalların sayına görə Azərbaycan 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdə idi. Yəni, bugünkü qələbənin çox möhkəm təməli var və bu, onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, Azərbaycan dövləti inkişaf edir. Çünki ancaq inkişaf etmiş ölkələrdə idman həm dövlətə, həm xalqa böyük qələbə gətirir. Biz idmançılarımızla fəxr edirik. Mən bütün idmançılarımızı bu böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram.

Bu Oyunlar, eyni zamanda, onu göstərir ki, Azərbaycanda aparılan düşünülmüş siyasət, o cümlədən idman sahəsində öz bəhrəsini verməkdədir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illər ərzində bu istiqamətdə atılmış addımlar, apardığımız siyasət bu gözəl nəticəni bizə verdi.

Bu gün Azərbaycanda idman ictimai proseslərin inkişafında xüsusi yer tutur. İdmançılara cəmiyyətdə çox xoş münasibət var. İdmançılara olan hörmət göz qabağındadır və hər bir vətənpərvər Azərbaycan vətəndaşı idmançılarımızın uğurlarını alqışlayır, bu uğurlarla fəxr edir. Hər dəfə bizim bayrağımız qaldırılanda, dövlət himnimiz səslənəndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Bu 10 gün ərzində idmançılarımız xalqımıza qələbə sevinci bəxş etdilər. Bu 10 gün ərzində Azərbaycan cəmiyyəti bir daha birlik, həmrəylik, vətənpərvərlik göstərdi, tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu, böyük sevgi ilə sizin qələbələrinizi alqışlayırdılar, sizinlə bərabər buna sevinirdilər, bu qələbə sevincini sizinlə bölüşürdülər.

İdman hər bir ölkənin ictimai həyatında xüsusi yer tutur və bu gün idmanın inkişafı, bax, bu gözəl nəticələrə gətirib çıxarır. Biz haqlı olaraq öz qələbələrimizlə fəxr edirik, eyni zamanda, sizin nümunəniz, bu Oyunlarda idmançılarımızın qələbələri, əminəm ki, yaxın gələcəkdə idman bölmələrinə uşaqların axınını daha da sürətləndirəcək. Çünki biz hər dəfə növbəti böyük idman qələbəsindən sonra görürük ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar, yeniyetmələr idman bölmələrinə üz tuturlar, sizin kimi olmaq istəyirlər, sizə oxşamaq istəyirlər. Gənc nəsil, uşaqlar görəndə ki, dövlət idmançıları qiymətləndirir, onları mükafatlandırır, onlara bütün şəraiti yaradır, əlbəttə, idmana daha da böyük maraq olacaq. Bu da nəticə etibarilə Azərbaycan gəncliyinin, xalqının sağlamlığına xidmət göstərəcək. Əlbəttə ki, biz idmançılarımızın uğurları ilə fəxr edirik və bu, bizim ölkəmizin şöhrətini artırır. Ancaq, eyni zamanda, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir. İdman sağlam həyat tərzidir və biz hamımız çox istəyirik ki, Azərbaycanda sağlam həyat tərzi yanaşması üstünlük təşkil etsin. Bu gün bu, belədir, dövlət siyasəti də məhz bu istiqamətdə aparılır və eyni zamanda, sizin qələbələriniz bizim siyasətimizi dəstəkləyir.

Bu Oyunların keçirilməsi əlbəttə ki, ölkəmiz üçün tarixi hadisə idi. Şadam ki, bu qələbəni şərtləndirən, qələbəyə aparan bütün qurumlar çox yaxşı işlədilər. Həm əvvəlki illərdə, həm Oyunlar ərəfəsində Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar, məşqçi korpusu, idman mütəxəssisləri, əlbəttə, idmançılar bir komanda, bir ailə kimi bir amala xidmət edərək, bu qələbəni mümkün etdilər. Bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda bütün idman qurumları çox sıx əlaqədə işləyirlər və hesab edirəm ki, uğurlarımızın təməlində bu amil dayanır. İdmançılar üçün isə biz bütün şəraiti yaratmışıq. Bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi, Bakı şəhərində isə istənilən beynəlxalq yarışı keçirmək üçün ən müasir və gözəl idman obyektləri fəaliyyət göstərir.

Oyunların keçirilməsində Təşkilat Komitəsinin rolunu xüsusi qeyd etmək istəyirəm. Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın. Ölkəmizə minlərlə xarici qonaq gəlmişdi. Mən Təşkilat Komitəsinin işini çox yüksək qiymətləndirirəm və bu, artıq təbii bir haldır. Çünki Mehribanın rəhbərliyi ilə üçüncü beynəlxalq mötəbər yarışma keçirilir – 2012-ci ildə "Eurovision" mahnı yarışması, 2015-ci ildə Avropa Oyunları, - o, birinci Oyunlar idi, Oyunların standartları yox idi və hazırlıq üçün bizim cəmi iki ilimiz var idi, - və bu dəfə İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir. Əlbəttə, bu, onu göstərir ki, Təşkilat Komitəsi öz vəzifə borcunu ləyaqətlə, şərəflə icra edib. Mən Təşkilat Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Əməliyyat Komitəsi çox fəal işləyib. Bu Əməliyyat Komitəsi Avropa Oyunlarının da təşkilini təmin edibdir və xarici mütəxəssislər də bizə kömək göstəriblər. Oyunların açılış və bağlanış mərasimləri də çox möhtəşəm idi. Mən yaxşı bilirəm ki, Təşkilat Komitəsi bu iki möhtəşəm təqdimatla çox ciddi məşğul olub. Həm açılış, həm bağlanış mərasimi ölkəmizin imkanlarını, xalqımızın istedadını göstərir. Eyni zamanda, onu göstərir ki, Azərbaycan və Azərbaycan xalqı öz milli, dini dəyərlərinə sadiqdir, onları qoruyur.

Biz açılış mərasimində İslam dininin mütərəqqiliyini göstərdik. Göstərdik ki, İslam dini elm dinidir, mədəniyyət dinidir, sülh dinidir, mərhəmət dinidir. Biz Azərbaycan xalqının istedadlı nümayəndələrini açılış mərasimində göstərdik. Azərbaycanın zəngin, qədim tarixini, mədəniyyətini bütün İslam aləminə, bütün dünyaya nümayiş etdirdik. Eyni zamanda, bağlanış mərasimi də Azərbaycanı mütərəqqi, müasir ölkə kimi təqdim etdi. Yəni, bu nadir vəhdət bu gün Azərbaycanı dünya miqyasında əvəzolunmaz ölkəyə çevirir. Biz öz milli, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq və qoruyacağıq. Eyni zamanda, biz dünyaya açığıq, biz müasirik, biz inkişaf edirik və bu önəmli amillər bu gün əslində müasir Azərbaycan dövlətini təcəssüm etdirir. Biz dərin milli-mənəvi köklər üzərində müasir dövlət qururuq, o dövlət ki, indi hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr edir.

Bizim uğurlarımızın təməlində Vətən sevgisidir və idmançılarımızı da qələbələrə aparan əsas amil budur. Biz gördük ki, idmançılar necə sevinirlər, xalqımız necə sevinir. Bu on gün ərzində biz bir daha gördük ki, xalqımız, cəmiyyətimiz birdir. Bizi birləşdirən bizim əqidəmizdir, tariximizdir və gələcəyə baxışlarımızdır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq olan bir ölkədir. Azərbaycan müsəlman aləmində çox böyük rəğbətə layiq olan bir ölkədir.

Bakıda keçirilmiş Oyunlar sayca üçüncü İslam Həmrəyliyi Oyunlarıdır. Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü isə Azərbaycanda keçirilib. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, İndoneziya müsəlman aləmində əhali baxımından ən böyük ölkədir. Müsəlman aləminin bu iki aparıcı ölkəsindən sonra üçüncü Oyunların, - halbuki bu Oyunların adı dördüncüdür, amma biz bilirik ki, cəmi üçüncü dəfə keçirilibdir, - Azərbaycanda keçirilməsi, əlbəttə, bizə olan böyük hörmətin və inamın təzahürüdür.

Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında çox sevinirdim ki, elə bil hamı mənə bir fikri çatdırmaq istəyirdi - hamı böyük minnətdarlıq hissi ilə təşkilati məsələlərin yüksək səviyyədə və peşəkarlıqla həll olunduğunu deyirdi. Əlbəttə ki, bu, bizi çox sevindirir. Oyunların bu səviyyədə keçirilməsi ölkəmizin gücünü, qüdrətini göstərir. Göstərir ki, biz istənilən beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil edə və eyni zamanda, öz standartlarımızı da tətbiq edə bilərik və bunu edirik. Avropa Oyunları bundan sonra ancaq Azərbaycan standartları əsasında keçiriləcəkdir. Bilirəm ki, bu standartlara çatmaq çətin olacaq.

Biz İslam Həmrəyliyi Oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu, bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Eyni zamanda, bu, ümumiyyətlə, bizim siyasətimizi göstərir. Çünki biz istəyirik ki, Azərbaycanda hər bir tədbir ən yüksək səviyyədə keçirilsin. Ona görə də ölkəmiz inkişaf edir, ona görə də Bakıya gələn bütün xarici qonaqlar şəhərimizə heyran qalırlar.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Azərbaycana gələn turistlərin sayı milyonlarla ölçülür. Bu Oyunlardan sonra ölkəmizə daha çox turist axını olacaq. Azərbaycanı bu gün nəinki İslam

davamı səh. 4

# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ QALİB İDMANÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRÜŞDƏ İŞTİRAK EDİB

əvvəli səh. 3



aləmində, dünyada inkişafda olan müasir, mütərəqqi, güclü dövlət kimi tanıyırlar və idmançılarımızın qələbələri bizim gücümüzü daha da artırır. Yəni, bu, daha əyani şəkildə göstərir ki, Azərbaycan güclü dövlətlər sırasındadır.

İdman yarışları, Olimpiya Oyunları, İslam Oyunları, Avropa Oyunları elə bir tədbirdir ki, bu tədbirlərdə həm idmançılar, həm ölkələr rəqabət aparırlar. İqtisadi, siyasi sahələrdə, beynəlxalq münasibətlər sahəsində bəzən birinciliyi müəyyən etmək üçün bəzi qurumlar, təşkilatlar çətinlik çəkirlər. Çünki müəyyən meyarlar olmalıdır. İdmanda isə hər şey açıq-aydındır. Azərbaycan birinci yerdədir, Azərbaycan qalibdir.

Əlbəttə, bu Oyunlar, eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək. Mən Oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar.

Bax, bu Oyunların tarixi əhəmiyyəti məhz bundadır. Azərbaycan apardığı siyasətə idman vasitəsilə əlavə töhfə verdi. Çünki bizim müsəlman aləmində siyasətimiz ondan ibarətdir ki, birlik, həmrəylik güclənsin, müsəlman ölkələri arasındakı bəzi ixtilaflara, müharibələrə son qoyulsun. Müsəlman aləmi birlik nümayiş etdirməlidir. Ancaq bu təqdirdə xalqlarımız gələcəkdə rahat və firavan yaşaya bilərlər. Ona görə, bizim apardığımız siyasət və bu Oyunlarda verdiyimiz töhfə əminəm ki, müsəlman aləminin birləşməsinə gətirib çıxaracaq.

Eyni zamanda, Azərbaycan müsəlman aləmini Qərb aləmi ilə birləşdirən ölkədir. Təsəvvür edin, iki il ərzində bir ölkədə, bir şəhərdə Avropa və İslam Oyunları keçirilir. Bu Oyunlarda 100-dən çox ölkə iştirak edir. Heç bir başqa ölkə bax, bu nailiyyətlə öyünə bilməz. Haqlı olaraq fəxr edirik ki, biz bunu edə bilmişik. Ölkəmiz həm Qərb dünyasında, həm müsəlman aləmində etibarlı tərəfdaş, dost və qüdrətli dövlət kimi tanınır.

Bir məsələni də qeyd etmək istəyirəm. Bizim uğurlarımızı əldə edən idmançılar müstəqillik dövründə yetişiblər. Bir çoxları müstəqillik dövründə doğulublar, müstəqillik illərində bu nailiyyətlərə gəlib çıxıblar. Bu, bir daha onu göstərir ki, müstəqillik bizim ən böyük sərvətimizdir. Bizim xalqımızın çox böyük tarixi var. Ancaq müstəqillik tariximiz müasir dövrdə o qədər də böyük deyil. Biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq və idman sahəsində, iqtisadi, sosial və digər sahələrdə görün, nə qədər böyük uğurlar əldə etmişik. İdman isə ölkələrin gücünü, siyasətini göstərir, xalqların gücünü göstərir. Sovet dövründə heç vaxt bizim ağlımıza gələ bilməzdi ki, Azərbaycan idmançıları bu qədər medal qazanacaqlar, Olimpiya Oyunlarında bu qədər qələbələr qazanacaqlar, müsəlman aləmində birinci, Avropa ölkələri arasında ikinci olacaqlar. Bütün bunlar ancaq müstəqillik dövründə mümkün olub. Ona görə, bu qələbə bir daha onu deyir və göstərir ki, ancaq müstəqillik dövründə xalqımız uğurla inkişaf edə bilər. Ancaq taleyimiz öz əlimizdə olduğu təqdirdə Azərbaycan xalqı sürətlə inkişaf edə bilər.

Biz müstəqillik gününün ərəfəsindəyik. Bir neçə gündən sonra Respublika Gününü qeyd edəcəyik. Bu qələbə əlbəttə ki, müstəqilliyimizə, müstəqilliyimizin möhkəmlənməsinə verilən növbəti töhfədir.

Eyni zamanda, biz mübarək Ramazan ayının başlaması ərəfəsindəyik. İslam Həmrəyliyi Oyunlarının Ramazan bayramının başlaması ərəfəsində başa çatması, Azərbaycan üçün böyük qələbə ilə sonuclanması hesab edirəm ki, təbiidir. Bu, təsadüfi deyil, bu, təbiidir.

Bir daha qayıdıram çıxışımın əvvəlinə. Bütün bu qələbələri bizə idmançılar bəxş ediblər. Ona görə, mən onları bir daha təbrik edirəm, onları qucaqlayıram, bağrıma basıram və onlara yeni qələbələr, uğurlar arzulayıram.

* * *

Sonra IV İslam Həmrəyliyi Oyunlarında ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİDİR



Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. 40-dək sessiya və tədbirin reallaşdığı Forumda 120-dək ölkə rəsmisi, 39 beynəlxalq təşkilatdan nümayəndələr, 50-dən çox qeyri-hökumət təşkilatı, ümumilikdə 800-dən çox yüksək səviyyəli dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatların rəhbərləri, parlament sədrləri, alimlər, səfirlər, tanınmış şəxslər iştirak edib.

4-6 may tarixində keçirilən Forumun üçüncü günü "Heydər Əliyev şəxsiyyəti və Azərbaycanda dinlərarası harmoniya" mövzusunda panel sessiya keçirilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri, professor Aytən Qəhrəmanın moderatorluğu ilə baş tutan sessiya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil olunub.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə siyasi, iqtisadi, milli və dini zəmində narahatlıqlar yaşanan zəmanəmizdə Bakıda növbəti mədəniyyətlərarası dialoq Forumunun keçirilməsini məntiqi addım kimi dəyərləndirib. Bildirib ki, müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam etdirən Azərbaycan bütün dünyaya göstərir ki, dini-mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür və bu məfkurə yaşamağa qadirdir. Məhz bu möhkəm mənəvi bünövrə üzərində təşəkkül tapmış Azərbaycan uğurlu ideyalarını dünyaya yaymaq qüdrətinə malik dövlətə çevrilib. Dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranı yaşandığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək, qlobal miqyasda ümumbəşəri ideyaların carçısı kimi çıxış edir. Dövlətimizin başçısı qlobal miqyasda multikulturalizm, İslam həmrəyliyi ideyalarının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair Bakı prosesinin müəllifidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın beynəlxalq müstəvidə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə himayəsi ölkəmizin qlobal miqyasda mədəniyyətlərarası dialoq istiqamətində söz sahibinə çevrilməsinə ali xidmətdir.

"Xalqımız və dövlətimiz bu uğurlara Ulu Öndər Heydər Əliyevin xilaskar azərbaycançılıq məfkurəsinin təməli üzərində nail olur. Heydər Əliyev ümummilli lider missiyasında ölkəmizi parçalamaq, mənəvi cəhətdən zəiflətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puça çıxararaq dövlətçiliyimizi xilas etdi. Mədəni-mənəvi dəyərlərin xalqın tərəqqi və rifaha qovuşmasında əhəmiyyətini gözəl dərk edən Ulu Öndər dövlət quruculuğu və müstəqilliyimizin möhkəmləndirilməsi kimi ümdə məsələlərlə yanaşı, Azərbaycan cəmiyyəti daxilində milli, dini, məzhəblərarası harmoniya məsələlərinə, dövlət-

davamı səh. 5

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN SİYASİ BANİSİDİR

əvvəli səh. 4

din münasibətlərinin tənzimlənməsinə hər zaman xüsusi diqqət yetirirdi. "Yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür" kəlamının müəllifi olan Ulu Öndərimiz tolerantlıq, multikulturalizm kimi ümumbəşəri önəm kəsb edən dəyərləri məhz Azərbaycanın nümunəsində dünya miqyasında analoqu olmayan bir fenomenə çevirməyə müvəffəq oldu. Beləliklə, milli və mənəvi dəyərlərinə sadiq, demokratik və dünyəvi dövlət olan Azərbaycan din-dövlət münasibətlərinin nümunəvi modelini, mədəniyyətlərarası dialoq və əməkdaşlığın yüksək təzahürü olan multikultural həyat tərzini qloballaşan dünyaya təqdim edir. Çox şadam ki, Ulu Öndər Heydər Əliyevin mənəviyyat məktəbinə layiqli dəyər verilərək, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ayrıca bir bölümü məhz bu mövzuya həsr olunub", - deyə Qafqaz Müsəlmanları İdarəsinin sədri vurğulayıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev qeyd edib ki, Azərbaycan tarixən çoxmədəniyyətli bir ölkə olub. Ulu Öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir. O deyirdi: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir". Ümummilli lider Heydər Əliyev bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədiləşməsinə yönəltdi. Ulu Öndərin təşəbbüsü və göstərişi ilə Azərbaycan multikultural ənənələrinin dövlət tərəfindən qorunması hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Konstitusiyasında əks olundu. Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilib.

Kamal Abdullayev diqqətə çatdırıb ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş multikulturalizm siyasəti müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlətimizin başçısının dəfələrlə qeyd etdiyi kimi, multikulturalizm xalqımızın həyat tərzinə çevrilib. "XXI əsrin əvvəllərində bir sıra Qərb ölkələri obyektiv və subyektiv səbəblərdən cəmiyyətdəki etnik müxtəlifliklərin tənzimlənməsində çox ciddi problemlərlə üzləşdi. Buna cavab olaraq Almaniya, Fransa, Böyük Britaniya kimi bir sıra Qərb ölkələrinin rəhbərləri multikulturalizm siyasətinin müasir dövrdə iflasa uğradığını rəsmi şəkildə bəyan etdilər. Müasir dünyada multikulturalizm siyasətinə ikili baxış, iki qütb formalaşmağa başladı. Bu qütblərdən birini bədbin, digərini isə nikbin adlandıra bilərik. Bədbin qütbü Böyük Britaniyanın keçmiş baş naziri Devid Kemeron formalaşdırdı və 2011-ci ildə Münhen Təhlükəsizlik Konfransında çıxışında bunu əsaslandırmağa çalışdı. Nikbin qütbü isə Azərbaycan Prezidenti İlham Əliyev formalaşdırmaqdadır. Prezident İlham Əliyev Kemeronun bədbin fikrinə qarşı optimist baxış və siyasi iradə ortaya qoydu", - deyə dövlət müşaviri bildirib.

Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev ölkəmizin gələcəyi ilə bağlı siyasətin müəllifidir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşısında müxtəlif yollar dayanırdı. Ulu Öndər bizə bu yolların ən düzgününü göstərdi. Azərbaycanda dünyəvilik təsbit olundu. Azərbaycan müsəlman dünyasının bir parçasıdır. Bütün dini bayramlarda dini konfessiyalar birgə iştirak edir.

Komitə sədri məlumat verib ki, hazırda Azərbaycanda 2 mindən çox məscid, 7 yəhudi sinaqoqu, 13 xristian kilsəsi fəaliyyət göstərir. Bu gün ölkəmizdə 760-dək dini icma qeydiyyatdan keçib. Onların sərbəst şəkildə fəaliyyət göstərməsi dinlərarası harmoniyanın göstəricisidir.

Sessiya müzakirələrlə davam edib.

# "Heydər Əliyev-gənclik-multikulturalizm" beynəlxalq konfransı Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti bəhrəsidir

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində 10-11 may tarixlərində Almaniyanın Auqsburq şəhərində Ulu Öndərin xatirəsinə həsr olunmuş "Heydər Əliyev-gənclik-multikulturalizm" mövzusunda beynəlxalq nəzəri-praktik konfransın yekun nəticələri ilə bağlı toplantı keçirilib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev qonaqları salamlayaraq konfransın yüksək səviyyədə keçirilməsi istiqamətində əməyi olan qurumlara minnətdarlığını bildirib: "Ulu Öndərin xatirəsinə gözəl bir hədiyyə kimi təqdim etdiyimiz bu konfrans ölkə rəhbərliyi tərəfindən də son dərəcə müsbət qarşılanıb. Mən elə güman edirəm ki, bu konfransı reallaşdırmaqla biz Azərbaycan multikulturalizminin siyasi banisi olan Ulu Öndərin ruhu qarşısında mənəvi borcumuzun kiçik bir hissəsini bu şəkildə ödəmiş olduq.

Faktiki olaraq bizim mənəvi cəhətdən yüksək sayılan bütün işlərimizin əsas



məqsədi ondan ibarətdir ki, bu gün və gələcəkdə harda olmalarından asılı olmayaraq Azərbaycanla bağlı bizdən əvvəl bizim dostlarımız öz səsini ucaltsın, bizim dərdlərimizdən, problemlərimizdən, layihələrimizdən bizim dostlarımız söz açsın. Biz artıq bunun elementlərini görürük. Auqsburqda keçirilən bu konfrans faktiki olaraq həmən o insanların formalaşmasında çox ciddi bir addım oldu. Sabah bu gənclər Azərbaycanla bağlı hər hansı bir istiqamətdə hər hansı provakasiyaya cavab verməyə hazır olan insanlardı. Bu istiqamətdə görülən işlər Azərbaycanın gələcəyinin daha da möhkəm, cəsarətli və ləyaqətli olmasına doğru atılan bir addımdır. Bu tədbir özözlüyündə Ulu Öndərə olan məhəbbətin ifadəsi idi, amma Ulu Öndərin böyüklüyü həm də ondadır ki, biz ondan çıxış edərək Azərbaycanın dostlarının daha da yaxınlaşmasına doğru növbəti siyasi-ideoloji bir addım atdıq".

Tədbirdə AMEA-nın Folklor İnstitutunun direktoru, professor Muxtar İmanov, M. F. Axundov adına Milli Kitabxananın direktoru Kərim Tahirov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, BBMM-in layihələr şöbəsinin müdiri Sərxanbəy Xuduyev də çıxış edərək konfrans barəsindəki təəssüratlarını bölüşüb, formatına, məzmununa və təşkilatı səviyyəsinə görə konfrası yüksək qiymətləndirib, onu Azərbaycanın gələcəyinə qoyulmuş sərmayə kimi dəyərləndiriblər.

Telekörpü vasitəsilə tədbirə bağlanan Auqsburq Universitetinin filologiya və tarix fakültəsinin professoru Klaus Vulf və BBMM-in Drezden filialının icraçı direktoru Bircit Vaysgerber konfransla bağlı təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüblər.

Sonda Azərbaycanın Gənc Dostlarının Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanmış müraciəti oxunub.

# BİLİK FONDU FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev Bilik Fondunda müşavirə keçirib.

Müşavirədə ölkədə aparılan ideoloji, sosial və elmi maarifləndirmə işlərinin daha da genişləndirilməsi, müxtəlif sahələr üzrə fondun lektorlar qruplarının işinin yenidən təşkili və lektorların ölkə daxilində gələcək fəaliyyət planı müzakirə olunub.

Dövlət müşaviri bildirib ki, Bilik Fondunun lektorlar qruplarının üzvlərindən ibarət yenidən formalaşdırılmış "Heydər Əliyev və azərbaycançılıq", "Multikulturalizm, tolerantlıq və din siyasəti", "Ədəbiyyat və incəsənət", "Hüquq", "Dilçilik", "Fizika, riyaziyyat və informatika", "Ekologiya və yer elmləri", "İqtisadiyyat", "Fəlsəfə", "Tarix", "Sosial, tibbi maarifləndirmə", "Cəmiyyət və kitab" bölmələri Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Nizamnaməsinə uyğun olaraq, ölkə əhalisinin elmi-praktik, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılması, azərbaycançılıq məfkurəsinin və milli-mənəvi, dini dəyərlərin təbliği, dövlətin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyət göstərəcək, ölkə Prezidenti İlham Əliyevin



hərtərəfli fəaliyyəti, çıxışları və imzaladığı qərarlarla bağlı davamlı mühazirələr təşkil edəcək. Ölkə əhalisinin müxtəlif sosial qruplarının, xüsusən gənclərin elmi biliklərinin və peşəkar vərdişlərinin inkişafı, onların vətənpərvər ruhda tərbiyə olunması istiqamətində Bilik Fondunun həyata keçirdiyi müxtəlif maarifləndirici layihələr daha intensiv və sistemli xarakter alacaq.

Müşavirədə Bilik Fondunun lektorlar qruplarının tanınmış ictimai-siyasi xadimlərdən, Milli Məclisin deputatlarından, dövlət qurumlarının məsul əməkdaşlarından, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxtəlif institutlarının direktorlarından, AMEA-nın həqiqi və müxbir üzvlərindən ibarət sədrlərinin səsləndirdiyi konkret təkliflər ətrafında geniş müzakirələr və fikir mübadiləsi aparılıb.

# Ramazan ayının başlanması ilə əlaqədar fətva verilib

Mayın 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların himayədarı kimi çıxış edir. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi təqdirəlayiq haldır. Bu qərarlar Azərbaycanda dini tolerantlığın dövlət siyasəti olmasını bir daha təsdiqləyir. Müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən dövlətimizin başçısının "İslam Həmrəyliyi İli" ideyası yalnız İslam dünyası daxilində deyil, İslam dini ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir. Növbəti İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi də bu məramın təzahürüdür.

Sonra ölkəmizdə dini-sosial dəyərlərin qorunması və təşviqi, dövlət-din münasibətlərinin daha da möhkəmləndirilməsində fəaliyyətlərinə görə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı akademik Vasim Məmmədəliyevə, Ağdam rayon Cümə məscidinin axundu hacı Barat Bağırova, Tərtər rayon Cümə məscidinin axundu Sadiq Cəfərova və Beyləqan rayon "Cərcis Peyğəmbər" ziyarətgahının axundu Mirsəccad İmranova mükafatlar təqdim olunub.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ölkəmizdə dini radikalizmlə mübarizə sahəsində xeyli irəliləyişə nail olunduğunu bildirib. Lakin bu sahədə hələ də bəzi çatışmazlıqların mövcud olduğunu deyən Komitə sədri həmin problemlərin aradan qaldırılması yollarından danışıb.



Şamaxı Astrofizika Rəsədxanasının direktoru Namiq Cəlilov ölkəmizdə elmin bu sahəsi üzrə görülən işlərdən danışıb, qazanılan nailiyyətlərə toxunub.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Ramazan ayının başlanması ilə əlaqədar fətvası oxunub.

Fətvada deyilir ki, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının builki hesablamalarına əsasən, ölkə ərazimizin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Ayın görünməsi ilə miladi təqvimlə 2017-ci il mayın 27-nə təsadüf edəcək. Ayın göründüyü andan etibarən Ramazan ayı başlayacaq. Fərqli qaydalar əsasında bütün səmavi dinlərdə Uca Yaradan tərəfindən vacib buyurulan oruc ibadəti insanları mənəvi cəhətdən saflaşdırır, onların günahlardan tövbə etmələrinə və Allah-Təala yolunda xeyirxah işlər görmələrinə səbəb olur. Bu ibadətin sayəsində insan aclığa və susuzluğa tab gətirərək öz nəfsinə qalib gəlir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayında ehtiyacı olanlara, uşaq evlərinə, ahıl və kimsəsizlərə imkan daxilində kömək etmək, ifrata və israfa yol verməmədən iftar süfrələri açmaq Allah nəzərində bəyənilən əməllərdəndir. Bu ayda ən böyük savab – Quranı tilavət etmək, valideynlərin xeyir-duasını almaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm və fəzilət sahiblərinə ehtiram göstərmək, insanlar arasında ünsiyyət, dostluq və qarşılıqlı hörməti təbliğ etməkdir.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birlikdə Azərbaycan ərazisi üfüqünə uyğun olaraq Ramazan ayının əvvəli, namaz vaxtları, bu mübarək ayın gündəlik duaları, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Digər mənbələrdən daxil olmuş, təxribat və təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlar tərəfindən istifadəsi yolverilməzdir. Fətvada deyilir: "Əminik ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyətlərinin müvafiq qurumları bu məsələdə bizə köməkçi olacaq, kütləvi informasiya vasitələri və sosial mediada QMİ-nin tərtib etdiyi, məzhəb ayrı-seçkiliyinin yolverilməzliyi baxımından vacib olan təqvimin təbliği və yayılmasına nəzarət edəcəklər".

Bildirilir ki, Eydül-Fitr – Ramazan bayramı Şəvval ayının 1-i - Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq iyun ayının 26-na təsadüf edəcək. Azərbaycan hökumətinin dini bayramlarımız olan Ramazan və Qurban bayramlarına ehtiramının göstəricisi kimi bu bayramlar dövlət səviyyəsində qeyd olunur. Bu, dövlətimizin dini dəyərlərə ehtiram və qayğısının təzahürü, din-dövlət münasibətlərinin yüksək səviyyəsindən irəli gələn məqamdır. Bu ehtiramlı münasibət, habelə 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması dindarlar tərəfindən minnətdarlıqla qarşılanır.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə canın sədəqəsidir və hər bir imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarıb imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Qazılar Şurasının qənaətinə görə, bugünkü günə uyğun olaraq adambaşına 5-10 manat arasında fitrə zəkatının verilməsi məsləhət görülür.

QMİ Qazılar Şurası və Elmi-Dini Şurası din xadimlərimizə bir daha xatırladır ki, müqəddəs Ramazan ayı ərzində iftar vaxtından qabaq açılan süfrələrdə iştirak etmək şəriətə görə böyük günahlardandır. Bu xəbərdarlığı nəzərə almayan din xadimləri barəsində ciddi tədbirlər görüləcək.

Qazılar Şurası din xadimlərimizə tövsiyə edir ki, bu əziz günlərdə dinimizdə müqəddəs sayılan şəxsiyyətlərlə yanaşı, torpaqlarımız, Vətənimiz uğrunda canlarından keçən qəhrəman şəhidlərin əziz xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərlik hisslərinin təbliğinə xüsusi diqqət yetirilsin.

"Duaların qəbul olunduğu mübarək Ramazan ayında biz müstəqilliyimizi əbədi edən Ulu Öndər Heydər Əliyevi rəhmətlə yad edir, dövlətçiliyimizin möhkəmlənməsi və xalqımızın rifahı naminə böyük işlər görən dövlət rəhbərimiz İlham Əliyev cənablarına Allah-Təaladan xeyir-dualar diləyirik. Duamız budur ki, Qadir Allah doğma Azərbaycanımızın qüdrətli və firavan gələcəyini, ölkəmizdə və bütün dünyada sülhü bərqərar etsin, gələn Ramazan iftarlarımızı doğma Qarabağda açmağı nəsib etsin. Qayıdışımızın rəmzi olan Cocuq Mərcanlı məscidinin minarələrindən ucalacaq azan böyük zəfərimizin müjdəsi olsun, inşallah!

Müsəlman qardaş və bacılarımızı mübarək Ramazanın gəlişi münasibətilə bir daha təbrik edir, müqəddəs dinimizə ehtiram nümayiş etdirməkdə, oruc ibadətlərimizi layiqincə tamamlamaqda bizə yardımçı olmasını Uca Rəbbimizdən diləyirik! Allah oruc və namazlarınızı qəbul etsin! Amin!", - deyə fətvada bildirilir.

## «Evlərdə Quran kursu açmaq olmaz»

"Azərbaycanın tarixən formalaşmış dövlət-din münasibətləri modelini çökdürməyə çalışanlar var".

APA-nın məlumatına görə, bunu Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Ramazan ayı ilə bağlı keçirilən tədbirdə deyib.

O bildirib ki, Azərbaycanın tarixən formalaşmış dövlət-din modelini təftiş etməyə, onu dəyişdirməyə çalışan qüvvələr var: "Hər kəs, xüsusilə dindarlar diqqətli olmalıdırlar. Azərbaycanın dövlət-din münasibətləri modelinin dəyişdirilməsinə cəhdlər radikal qruplara qarşı birgə mübarizəmizi zəruri edir. Çünki bizim tarixən formalaşmış modeli çökdürmək dini ənənələrimizi məhv etmək deməkdir. Ona görə də bu cür cəhdlərə qarşı birgə mübarizə aparılmalıdır".

Mübariz Qurbanlı, eyni zamanda Dövlət Komitəsinin bölgələrdə təşkil etdiyi tədbirlərdə QMİ nümayəndələrinin yaxından iştirakını da tövsiyə edib.

O, həmçinin xurafatla bağlı bəzi dindarlara irad da tutub: "Əgər dindar hər hansı məclisdə falçılıqdan, xurafata şamil olunan şeylərdən danışırsa, demək, o, dindar deyil".

Dövlət Komitəsinin sədri Quran kursları ilə bağlı məsələyə də toxunub. O bildirib ki, evlərdə Quran kursu açmaq olmaz. Kurs ancaq məscidlərdə yaradıla bilər: "Bütün Quran kursları Qafqaz Müsəlmanları İdarəsində qeydiyyata alınmalı və rəsmiləşdirilməlidir. Bu işlə məşğul olan və özünü axund, imam kimi təqdim edən şəxslər qanun qarşısında cavab verməli olacaq. Heç bir səlahiyyəti və təyinatı olmayanlar Quran kursu adı altında gəncləri radikal qrupların təsiri altına sala bilər. Nəyin bahasına olursa olsun, kənardan ümumi islami dəyərlərə xələl gətirən və zərbə vuran cərəyanların Azərbaycana ayaq açmağına yol verməməliyik".

## "HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜSTƏQİLLİYƏ GEDƏN YOLUNUN ƏSASLARINI YARADIB"

Mayın 8-də Dövlət Gömrük Komitəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94 illiyi münasibəti ilə keçirilən tədbirdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ulu Öndərlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. O, Heydər Əliyevin istər SSRİ, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə xalqa tükənməz sevgisindən, böyük siyasi fəaliyyətindən danışıb: "Heydər Əliyev Azərbaycanın müstəqilliyə gedən yolunun əsaslarını yaradıb. Ölkəmiz yenicə müstəqillik qazanan zaman yaşanan təhlükələrin qarşısını alıb. Həmin dövrdə Heydər Əliyev kimi siyasətçi olsaydı, bəzi tarixi faciələr olmazdı. Heydər Əliyev sübut etdi ki, o bir məktəbdir. Heydər Əliyev



Azərbaycançılıq ideyasını yaşadan insandır. İlham Əliyev isə bu ideologiyanın davamçısıdır və bu missiyanı layiqincə davam etdirir".

# MÜSƏLMAN ÖLKƏLƏRİ ARASINDA BİRLİK, HƏMRƏYLİK DÜNYADA SÜLHƏ BÖYÜK TÖHFƏ VERƏ BİLƏR



Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi İslam dünyasına bir mesaj, İslam ölkələri arasında əməkdaşlığın möhkəmləndirilməsinə çağırışdır.

Bu fikir mayın 23-də Ağdam rayonunun Quzanlı qəsəbəsində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda keçirilən regional konfransda səsləndirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə dini işlər üzrə komissiyanın üzvləri, dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Rayon icra hakimiyyəti başçısının müavini Zülfü Qasımov tədbiri açaraq, rayonda dini durumun sabit olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi ilə əlaqədar rayonda həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə danışıb. Qeyd edib ki, "Multikulturalizm ili"nin məntiqi davamı kimi 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi müasir dövrdə tolerantlıq prinsiplərinə sadiqliyin bariz nümunəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əsas məqsədinin dini radikalizmə qarşı maarifləndirmə işlərinin aparılmasından, Azərbaycanda mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, İslam dininin dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqindən ibarət olduğunu deyib.

Bildirilib ki, müasir dünyada din amilindən başqa məqsədlər üçün də istifadə olunur. Dinin siyasiləşdirilməsi müxtəlif ölkələrdə, xüsusən də İslam ölkələrində ağır nəticələrə, qarşıdurmalara gətirib çıxarır.

Komitə sədri İslam ölkələri arasında həmrəyliyin, birliyin yüksək səviyyədə olmadığını təəssüflə qeyd edərək, başqa dövlətlərin, böyük güclərin bundan istifadə etdiyini diqqətə çatdırıb. Bildirib ki, müsəlman ölkələri arasında birliyə, həmrəyliyə böyük ehtiyac var. İslam dünyasında birlik, həmrəylik, eyni zamanda, dünyada sülhə böyük töhfə verə bilər. 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi, Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi, müsəlman ölkələri arasında əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi, Beynəlxalq Multikulturalizm Mərkəzi, Bilik Fondu və yerli icra hakimiyyətləri ilə birgə İslam həmrəyliyinin təbliğ edilməsi istiqamətində işləri davam etdirir, yerli icmalara layihələr verilir, kitablar nəşr edilir. "Çalışırıq ki, İslamın əsl mahiyyətini insanlara çatdıraq, gənclərimizin İslama zidd olan müxtəlif qruplara qoşulmasının qarşısını alaq. Gəncliyimizi xətalardan qoruyaq. Bunun üçün isə geniş təbliğat aparılmasına ehtiyac var. Bu işdə, ilk növbədə, ziyalıların, din xadimlərinin üzərinə məsuliyyət düşür", – deyə Komitə sədri bildirib.



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətləndiyini vurğulayan Komitə sədri qeyd edib ki, əgər sovetlər dönəmində Azərbaycanda 17 məscid var idisə, hazırda 2 mindən çox ibadət məkanı fəaliyyət göstərir.

Komitə sədri, eyni zamanda, ermənilərin ölkəmizin tarixi dini abidələri və məscidlərinə vurduğu ziyanlar barədə də danışıb. Qeyd edib ki, aprel hadisələri zamanı Ağdamın Əhmədağalı kəndində yerləşən məscidin bombalanması bir daha onu göstərir ki, Ermənistanın təcavüzü yalnız Azərbaycan dövlətinə deyil, həm də Azərbaycanın mənəvi dəyərlərinə, ibadət evlərinə qarşı yönəlib.

Rayon Cümə məscidinin axundu Barat Bağırov, Seyid Lazım Ağa ocağının axundu Mir Yusif Ağa və başqaları çıxış edərək, tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin dünyaya bir mesaj olduğunu bildiriblər.

## "İSLAM HƏMRƏYLİYİ OYUNLARI SÜLH, HƏMRƏYLİK OYUNLARIDIR VƏ ÖLKƏMİZ DÜNYADA SÜLHÜN, BİRGƏYAŞAYIŞIN MƏKANI KİMİ QƏBUL EDİLİR"



Bütün sahələrdə uğurla inkişaf edərək bölgənin, eyni zamanda İslam aləminin əsas söz sahiblərindən birinə çevrilən Azərbaycan bu günlərdə müsəlman dünyasını əhatə edən, öz kütləviliyi ilə seçilən daha bir beynəlxalq idman yarışına – IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edir. Bu Oyunların Azərbaycanda keçirilməsinin ölkəmiz üçün çox böyük ictimai-siyasi əhəmiyyəti vardır. 54 müsəlman ölkəsinin qatıldığı bu Oyunlarda idmançılarımız qazandıqları nailiyyətlərlə hər birimizi fərəhləndirməkdədirlər. Artıq yarışların başa çatmasına bir neçə gün qalıb və geridə qalan günlər bir daha sübut etdi ki, dövlətimiz əvvəlki illərdə olduğu kimi, bu tədbirin də təşkilatçılıq işinə özünəməxsus möhür vuracaq, yeni səviyyə müəyyənləşdirəcəkdir.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "ATV Xəbər" informasiya proqramına müsahibəsində bildirib.

Komitə sədri qeyd edib ki, bu ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi İslam dünyasında həmrəyliyin güclənməsinə böyük töhfə olacaqdır. Bu gün İslam dünyası, bəlkə də, özünün çox mürəkkəb dövrlərindən birini yaşayır. Bir sıra müsəlman ölkəsində müharibə və münaqişələr davam edir. Təbii ki, belə bir dövrdə Azərbaycanın bu Oyunları yüksək səviyyədə təşkil etməsi, yarışların uğurla keçirilməsi İslam dünyasında həmrəyliyə, sülhə, əmin-amanlığa böyük təkan verəcəkdir. İslam Həmrəyliyi Oyunları sülh, həmrəylik oyunlarıdır və ölkəmiz bütün dünya tərəfindən sülhün, əmin-amanlığın, barışın, birgəyaşayışın məkanı kimi qəbul edilir.

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ AĞDAMDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Quzanlı qəsəbəsində Ağdam, Ağcabədi və Tərtər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədov Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 20-dək vətəndaşın müraciətinə baxılıb. Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, məscidlərin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Vətəndaşlar yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ QAZAXISTANLI NAZİR MÜAVİNİ İLƏ GÖRÜŞÜB



Mayın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qazaxıstanın Vətəndaş cəmiyyəti və dini işlər nazirinin müavini Arın Berik Saqbayulını qəbul edib.

İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Dövlət Komitəsinin sədri Azərbaycanda dinindən, məzhəbindən, etnik mənsubiyyətindən asılı olmayaraq insanların sabitlik, tolerantlıq və multikulturalizm şəraitində yaşamalarına diqqət çəkərək, bunu ölkəmizin ən böyük nailiyyətlərindən biri olduğunu vurğulayıb.

Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycanda mədəniyyətlərarası dialoq, tolerantlıq və multikulturalizm dövlət siyasətinin prioritet sahələridir və ölkəmiz bu istiqamətdə artıq uzun illərdir bir sıra qlobal forumlara ev sahibliyi edir. Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildiyini xatırladan Mübariz Qurbanlı ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarının mayın 12-də möhtəşəm açılış mərasiminin baş tutduğunu diqqətə çatdırdı.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq ölkələrimiz arasında əməkdaşlığın bütün sahələr üzrə uğurla inkişaf etdiyini bildirib. Qeyd edib ki, təmsil etdiyi nazirlik Azərbaycanın dini konfessiyaları, icmaları, eləcə də Azərbaycan dövlətinin din siyasətinin, dini radikalizmlə və ekstremizmlə mübarizə sahəsində təcrübəsinin dərindən öyrənilməsində maraqlıdır. Qonaq Qazaxıstanda bu sahədə aparılan işlər barədə məlumat verib.

Görüş zamanı dini və humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib, hər iki ölkənin dövlət qurumları arasında əməkdaşlığın daha da gücləndirilməsinə ehtiyac olduğu qeyd olunub.

## «Heydər Əliyev irsi və İslam həmrəyliyi» müsabiqəsinin qalibləri mükafatlandırılıb



Mayın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94 illiyi münasibətilə dini icmalar arasında "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda elan olunmuş məqalə müsabiqəsinin qaliblərini mükafatlandırıb.

Tədbiri komitə sədrinin birinci müavini Səyyad Salahlı açaraq dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışıb. O, Ulu Öndərin həyata keçirdiyi siyasətdə tolerantlığın hər zaman diqqət mərkəzində olduğunu vurğulayıb. Qeyd edib ki, ölkəmizdə bütün konfessiyalara eyni səviyyədə münasibət Ümummilli Liderin tolerantlığa verdiyi önəmi bir daha göstərir. Tolerantlıq siyasətinin ən bariz nümunələrindən biri də odur ki, milli-mənəvi dəyərlərlə bağlı keçirilən tədbirlərdə bütün dini konfessiyaların nümayəndələri iştirak edirlər. Heydər Əliyevin həyat və fəaliyyəti, onun beynəlxalq siyasətdə xüsusi yer tutması, dünyanın müxtəlif hissələrində məskunlaşmış azərbaycanlıların birliyi naminə atdığı addımlar haqqında geniş söhbət açan S.Salahlı onun 1993-cü ildə Azərbaycanın düşdüyü çətin vəziyyətdə, dövlətçiliyimizin təhlükə qarşısında qaldığı bir zamanda xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsindən sonra ölkəmizin əldə etdiyi uğurlardan danışıb. O, həmçinin Heydər Əliyevin Azərbaycanda dövlət quruculuğu sahəsində misilsiz xidmətləri və onun yaratdığı məktəbin layiqli davamçısı Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar haqqında məlumat verib. Komitə sədrinin birinci müavini ölkəmizin son illərdəki iqtisadi inkişaf göstəriciləri haqqında da söhbət açıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra uzaqgörən və müdrik siyasəti ilə ölkəmizi böyük bəlalardan qurtardığını və müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu olduğunu bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Rahib Babayev Ulu Öndər Heydər Əliyevin şanlı həyat yolundan, memarı olduğu müstəqil Azərbaycanın təşəkkülü və tərəqqisi mərhələlərindən danışıb. Qeyd edib ki, məhz dahi Heydər Əliyevin müdrik siyasəti sayəsində ölkəmiz keçən əsrin 90-cı illərinin əvvəlində böhrandan çıxa bilib və bu gün Ümummilli Liderin strategiyasının layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi altında regionda aparıcı dövlətə çevrilib.

Sonda DQİDK-nın dini icmalar arasında ənənəvi olaraq təşkil etdiyi "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Müsabiqənin nəticələrinə görə, Ağayev Süleyman I yer, Quliyeva Zeynəb II yer, Ruhullayev Ruhulla III yerlərə layiq görülüblər, İbrahimov İbrahim, Cəfərov Elnur, Əliyev Şəfaət isə həvəsləndirici mükafatlarla təltif ediliblər.

## Lerikdə «İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri» mövzusunda seminar-müşavirə keçirilib

Mayın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, RİH başçısının müavinləri, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, şöbənin əməkdaşları, hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Dini işlər üzrə komissiyanın sədri Cəlil Baxşiyev rayonun dini durumu haqqında ətraflı məlumat verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad




Salahlı ölkəmizdə bütün dinlərə bərabər münasibət göstərildiyini vurğulayaraq Azərbaycandakı multikultural və tolerant mühitin bütün dünyada müasir və mütərəqqi model kimi qəbul edildiyini diqqətə çatdırıb. Tarix boyu müxtəlif qüvvələrin müsəlman dünyasının birliyinə mane olmağa çalışdığını bildirən Səyyad Salahlı hər bir müsəlmanın İslam dünyasının vəhdətini qüvvətləndirmək üçün inamlı addımlar atmalı olduğunu qeyd edib. O bu məqsədlə cənab Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini və ölkəmizin tarixi missiyanı həyata keçirdiyini vurğulayıb. Komitə sədrinin birinci müavini İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə tövsiyələrini verib, onları ölkəmizdə İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırıb.

Lerik rayon Ağsaqqallar şurasının sədri Həmzə Vəliməmmədov və dini icma sədrləri çıxışlarında xalqımızın zəngin milli-mənəvi, multikultural və tolerant dəyərlərə sahib olduğunu bildiriblər.

Yekun nitqi ilə çıxış edən Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu, multikulturalizmin dövlət siyasətinə çevrildiyini bildirib. Cənab Prezident tərəfindən bu ilin "İslam Həmrəyliyi İli" elan olunması, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsini İslam dünyasında həmrəyliyə, birliyə töhfə olmaqla yanaşı, həm də dünyada sivilizasiyalar arasında həmrəyliyə müsbət təsir göstərəcəyini qeyd edib.

# BAŞ REDAKTORUMUZ, DQİDK SƏDRİNİN BİRİNCİ MÜAVİNİ, YAZIÇI-PUBLİSİST SƏYYAD ARAN "RƏSUL RZA" MÜKAFATI ALIB



Hər cəmiyyətin tarixi yaddaşında silinməz izləri qalan ziyalıları var. Onlar müdrik yanaşmaları ilə zamanın nəbzini tutaraq özlərindən sonrakılar üçün mayak olurlar. Yetişən nəsil də ideal kimi seçdiyi şəxsiyyətlərin yolundan addımlamağa, onların ideya və uğurlarını davam etdirməyə, beləliklə, öz tarixi şəxsiyyətlərini yaşatmağa çalışırlar. Azərbaycan poeziyasında, ədəbiyyatında, bir sözlə, tariximizdə fəxr ediləsi insanlar çox olub. Böyük xoşbəxtlikdir ki, bu gün də gənc nəslə, cəmiyyətə humanistlik aşılayan, mənəvi dünyamızın zənginliyi yolunda çalışan ziyalılarımız mövcuddur.

Tarix unutqanlığı bağışlamadığı üçün tarixi şəxsiyyətlərimizlə bağlı günümüzdə dövlət tərəfindən görülən tədbirlər təqdirəlayiqdir. Poeziyamızın görkəmli nümayəndələrindən biri, Azərbaycanın Xalq şairi Rəsul Rzanın adına təsis edilən və mühüm ədəbiyyat mükafatlarından olan "Rəsul Rza" mükafatı da bunun nümunələrindən biridir.

Şairin doğum günündə verilən "Rəsul Rza" mükafatı artıq 5 ildir öz layiqli namizədlərinə təqdim olunur.

Müasir Azərbaycan ədəbiyyatı və publisistikasının əsas simalarından biri yazıçı-publisist Səyyad Aran da "Rəsul Rza" mükafatı ilə təltif edilib. Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan Səyyad Aranın bu mükafata layiq görülməsi təsadüfi deyil. Əsərlərində hissiyyatların zənginliyi ilə yanaşı, müdriklik və təmkin ön planda olan yazıçı hər dəfə oxucularıyla ən zərif hisslərin qovuşuğunda görüşür. Dövrün siyasi və psixoloji nəbzini tutmağı bacaran publisist yaradıcılığındakı tədqiqat və təhlilləri ilə oxucusuna geniş dünya bəxş edir. Məşğul olduğu bütün sahələrdə zəngin şəxsiyyət olan yazıçı müasir Azərbaycan ədəbiyyatına xüsusi hörmət gətirən qələm sahiblərindəndir. Humanist ürəyə sahib filologiya elmləri namizədi Səyyad Aran bu mükafatı yaradıcılığına verilən ən böyük qiymətlərdən biri adlandırıb: "Rəsul Rza mükafatı hər bir qələm əhlinin arzuladığı mükafatdır. Bu mükafata layiq olmaq ədəbiyyatda ciddi hadisədir. Belə bir səadət mənə də bəxş olundu. Özümü həm xoşbəxt, həm də qürurlu hiss edirəm. Belə bir önəmli mükafatı Fikrət Qocanın əlindən, Anar müəllimin xeyir-duası ilə qəbul etmək ayrıca bir şərəfdir. Rəsul Rza ədəbiyyatımızda elə bir iz qoyub ki, onun yeri həmişə bu xalqın tarixində, ədəbiyyatında görünəcək və o, əbədi olaraq yaşayacaq".

* * *



Qeyd edək ki, mayın 19-da Xalq şairi Rəsul Rzanın doğum günü münasibətilə ictimai-siyasi xadimlər, yazıçı və şairlər tərəfindən şairin xatirəsi anılıb. Azərbaycan Yazıçılar Birliyində (AYB) Rəsul Rza Ədəbiyyat Fondunun təsis etdiyi "Rəsul Rza" mükafatının təqdimetmə mərasimi keçirilib.

Üç mərhələdən ibarət Rəsul Rza mükafatı ilk olaraq şair Musa Yaquba, ikinci mərhələdə akademik Nizami Cəfərova, yazıçı-publisist Səyyad Arana, Ədliyyə general mayoru Akif Rəfiyevə, üçüncü mərhələdə isə "Atilla" jurnalının baş redaktoru Gülşən Behbuda, filologiya elmləri doktoru Salidə Şərəfovaya və alim Cabir Xəlilzadəyə təqdim edilib.

Tədbir zamanı ziyalılar şairin ədəbiyyatımızdakı fədakar xidmətlərindən söz açaraq layiq görüldükləri mükafata görə Rəsul Rza Ədəbiyyat Fondunun prezidenti Fikrət Qocaya, AYB sədri Anara və zəhməti keçən hər bir kəsə öz təşəkkürlərini bildiriblər.

## Dövlət Komitəsi daha 16 dini icmaya maliyyə yardımı ayırdı

Mayın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış 16 dini icma sədrinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibəti nəticəsində dinə dövlət qayğısı dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Bu ardıcıl və məqsədyönlü siyasətin sayəsində milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində mühüm addımlar atılıb, irəliləyişlər əldə olunub. Ümummilli Lider Heydər Əliyevin bu siyasi kursunu uğurla davam etdirən cənab Prezidentimiz milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət və qayğı göstərir. O qeyd edib ki, Prezident cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı bu qayğının təzahürlərindən biridir.

Azərbaycan Respublikasında 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında imzaladığı Sərəncamın vacibliyinə toxunan Səyyad Salahlı dini icmaların DQİDK-ya təqdim etdikləri layihələr içərisində əsasən "İslam həmrəyliyi" mövzusuna həsr olunanların maliyyələşdirilməsinə üstünlük verildiyini bildirib. Komitə sədrinin birinci müavini, eyni zamanda İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə tövsiyələrini də verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 196 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 177-i isə İslam dini icmasıdır. DQİDK-ya təqdim etdikləri layihələri maliyyələşdirilmiş icmalar tərəfindən vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği, gənclərin dini radikal təsirlərdən qorunması istiqamətində Bakı şəhərində və respublikanın regionlarında müxtəlif tədbirlər həyata keçirilir, kitablar çap edilir.



## Qusarda dini icmalar üçün seminar-müşavirə keçirilib



Mayın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qusar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Qusar rayon Mədəniyyət Mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Müşavirədə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Qusar RİH-in başçısı Şair Alxasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri və rayon ictimaiyyəti iştirak edib.

Tədbiri giriş sözü ilə açan Qusar RİH-in başçısı Şair Alxasov dövlət-din münasibətlərinə toxunaraq bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin başlıca məqsədi Azərbaycanda dinlər arasında mövcud olan tolerant mühiti qoruyub saxlamaqdır. O qeyd edib ki, hazırda ölkəmizdə dini sabitliyin hökm sürməsi həmin siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, dövlət-din münasibətlərinin başlıca amalı ölkə vətəndaşlarının sərbəst şəkildə öz dini inanclarını yerinə yetirməsidir. Digər bir məsələ isə ölkəmizdəki sabit dini durumun pozulmasına çalışan neqativ halların qarşısının maksimum dərəcədə alınmasıdır. Natiq xüsusi vurğulayıb ki, Azərbaycan dövləti dini sahədə qarşısına qoyduğu bütün məsələləri vaxtında və düzgün həll edir. S.Salahlı çıxışında dini icmaların üzərinə düşən məsuliyyətə toxunaraq qeyd edib ki, dini icmaların rəhbərləri və icma üzvləri yerlərdə fəal iş aparmaqla əhalini dini sahədə maarifləndirməlidirlər. İnsanların radikallığa meyillənməsinin əsas səbəbinin dini savadsızlığın olduğunu diqqətə çatdıran sədrin birinci müavini bildirib ki, bu məsələdə hər kəs dini icmalara kömək etməlidir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Qusar rayon şöbəsinin rəisi Xəyyam Məhərrəmov çıxışında dini radikalizm və ekstremizmə qarşı aparılan mübarizə tədbirləri barədə danışıb.

Qusar Rayon Təhsil Şöbəsinin müdiri Niftəli Fərzəliyev çıxış edərək bildirib ki, rayonun təhsil müəssisələrində Təhsil Nazirliyinin xətti ilə dini maarifləndirmə sahəsində çoxsaylı tədbirlər həyata keçirilir.

Seminar-müşavirənin yekununda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Lənkəranda regional seminar-müşavirə keçirilib

Mayın 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda regional seminar-müşavirə keçirilib.

Radikalizmə qarşı mübarizə sahəsində qarşıda duran vəzifələrə həsr olunan seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Baş Prokurorluğun nümayəndəsi Alim Cəbrayılov, Daxili İşlər Nazirliyinin nümayəndəsi Oktay Tağıyev, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl rayonlarının hüquq-mühafizə orqanlarının və DQİDK-nın yerli strukturunun əməkdaşları, din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Seminar-müşavirə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.



Filmin nümayişindən sonra çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov məruzəsində dünyada gedən proseslərin, dini zəmində baş verən ixtilafların, radikalizm və ekstremizmin, islamofobiya meyillərinin müsəlman ölkələrinə dağıdıcı təsirləri barədə danışıb, bu kimi mənfi halların qarşısının alınması baxımından keçirilən regional seminar-müşavirənin əhəmiyyətini vurğulayıb. T. Qaraşov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətlərinin Azərbaycan modelinin formalaşdığını və bu modelin dünya üçün bir nümunə olduğunu diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov çıxışında radikalizm və ekstremizmin sırf dini, dini-etnik və dini-siyasi formalarda təzahür etdiyini, dini zəmində baş verən münaqişələrin, bu proseslərin müsəlman ölkələrinin inkişafına ciddi maneə yaratdığını bildirib. Dini radikalizmə qarşı mübarizədə maarifləndirmə işinin aparılmasının böyük əhəmiyyət daşıdığını vurğulayan Səyavuş Heydərov ölkəmizdə bu kimi proseslərin qarşısının alınmasında DQİDK, Qafqaz Müsəlmanları İdarəsi və hüquq-mühafizə orqanlarının yaxından əməkdaşlıq etdiyini qeyd edib.

Çıxışında 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinin günümüzdə baş verən qlobal hadisələr kontekstində çox mütərəqqi addım olduğunu bildirən Səyavuş Heydərov bununla ölkəmizin tarixi missiya həyata keçirdiyini, müsəlman ölkələrini sülhə, həmrəyliyə çağırdığını bildirib.

Baş Prokurorluğun nümayəndəsi Alim Cəbrayılov və Daxili İşlər Nazirliyinin nümayəndəsi Oktay Tağıyev çıxışlarında məzhəb qarşıdurması, dini ayrı-seçkilik, radikal dini cərəyanlara qarşı aparılan profilaktik və inzibati işlərdən danışaraq, son dövrlərdə bu sahə üzrə qanunvericilikdə edilmiş dəyişikliklər barədə məlumat veriblər.

QMİ-nin bölgə qazısı Qəni Axundzadə İslam dininin xurafatdan uzaq şəkildə təbliğ olunmasında maarifləndirmənin vacibliyindən danışaraq bölgədə son dövrlərdə dini sabitliyin mövcud olduğunu diqqətə çatdırıb.

# İslam həmrəyliyi eyni dəyərləri bölüşənlərin birliyidir



Mayın 3-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin (YAP GB) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi gənclərin gözü ilə" adlı konfrans keçirilib.

Konfransda DQİDK-nın, YAP Gənclər Birliyinin, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndələri, partiya üzvləri, gənclər, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların təmsilçiləri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi təsadüfi deyil. Bu, əslində Azərbaycandan İslam dünyasına verilən önəmli mesajdır. Bu günlərdə Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu ərəfədə Azərbaycanın bütün dünyaya verdiyi İslam həmrəyliyi mesajının nələri, kimləri, hansı məqsədləri ehtiva etdiyini müxtəlif dini konfessiyalara mənsub gənclərlə müzakirə etmək təqdirəlayiqdir. Bu gün İslam dünyası çətin dövr yaşayır – çoxsaylı münaqişələr, terror, radikalizm, məzhəbçilik kimi hallar artır. Biz bu dəhşət saçan mənzərənin çıxış yolunu həm də həmrəylikdə görürük. İslam həmrəyliyi eyni maraqları yox, eyni dəyərləri bölüşənlərin birliyidir.

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədri Kənan Kərimov çıxışında bildirib ki, Azərbaycan xalqının mədəniyyətə, sivilizasiyalararası dialoqa verdiyi önəmin nəticəsində hər bir gənc istənilən kürsüdən məğrurluqla çıxış edə bilir. Bu gün Azərbaycan gəncinin üstün keyfiyyətlərindən biri bütün dinlərə hörmət etməkdir. Bütün dinlərə hörmətlə yanaşan Ulu Öndər Heydər Əliyev sülhə, əmin-amanlığa böyük önəm verirdi. Bu gün Prezident İlham Əliyev Ümummilli Liderin əsasını qoyduğu bu ənənəni davam etdirir.

Daha sonra çıxış edən QMİ-nin şöbə müdiri Aqil Şirinov, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun sektor müdiri Orxan Ərəbov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Denis Siveçnikov, AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı Şölət Zeynalov dövlətimizin gənclər siyasəti, gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz ruhunda tərbiyə olunması, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması barədə danışıblar.

# "İslam həmrəyliyi çağırışını ölkə başçıları səviyyəsində ilk dəfə Azərbaycan Prezidenti etdi"

Son illər Azərbaycanda bir sıra önəmli beynəlxalq tədbirlər keçirilir. Bu, Azərbaycanın dünya miqyasında çox böyük hörmətə malik olan ölkə olduğunu sübut edir. O cümlədən mayın 12-dən etibarən başlayan IV İslam Həmrəylik Oyunları da bu cür tədbirlərin sırasındadır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Modern.az saytına İslam Oyunlarının ölkə üçün olan əhəmiyyətindən bəhs edib. O bildirib ki, bu oyunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzu baxımından çox önəmlidir: "İlk növbədə "İslam Həmrəyili İli" çərçivəsində IV İslam Həmrəylik Oyunlarının keçirilməsi təkcə Azərbaycan üçün yox, bütün İslam dünyası üçün önəmli və tarixi hadisədir. Eyni zamanda, bu, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu, İslam dininin dünyada özünəlayiq formada təqdim edilməsi baxımından gözəl fürsətdir.

2016-cı il Azərbaycanda "Multikulturalizm ili" idi. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edildi. Mənə elə gəlir ki, cənab Prezident İlham Əliyevin "İslam Həmrəyliyi İli"ilə bağlı Sərəncamına "Multikulturalizm ili"nin məntiqi nəticəsi kimi yanaşmaq lazımdır".

Sədr müavininin fikrincə, bu gün İslam dünyası ölkələrinin həmrəyliyinə ehtiyac var: "İslam, o cümlədən Azərbaycanla bağlı həqiqətlərin çatdırılmasında bu il çərçivəsində həyata keçirilən tədbirlərin böyük rolu olacaq. Biz artıq bunu hiss edirik. Çünki ilin əvvəlindən başlayaraq "İslam Həmrəyliyi İli" çərçivəsində müxtəlif beynəlxalq konfranslar, tədbirlər təşkil edilib. Həmin tədbirlərdən istifadə edərək biz Azərbaycan reallıqlarını, xüsusilə Qarabağla bağlı reallıqları beynəlxalq aləmə, mütəxəssislərə, diplomatlara, eyni zamanda müxtəlif yaradıcı qurumları təşkil edən şəxslərə çatdıra bilmişik.



Həmçinin bu gün İslam dünyasında həmrəyliyə böyük ehtiyac var. Bu həmrəyliyin gerçəkləşməsi üçün Azərbaycanın dövlət başçısı çağırış edib. Qeyd edim ki, ölkə başçıları səviyyəsində müsəlman dünyasına birlik çağırışı ilk dəfədir. Bundan əvvəl də İslam birliyi ilə bağlı müəyyən çağırışlar olub. Amma bu çağırışları edənlər hansısa din xadimi, ictimai-siyasi xadim idi. Düşünürəm ki, İslam birliyinə nail olmaq, bu istiqamətdə uğur əldə etmək üçün IV İslam Həmrəylik Oyunları kifayət qədər əhəmiyyət kəsb edir".

# Auqsburqdakı Azərbaycan, yaxud gələcəyimizə düşən işıq



2007-ci ildə Bakıya Ceyms Simit adlı əcnəbi jurnalist gəlmişdi. Danışırdı ki, əvvəlcə Xəzər neftindən yazmaq istəyib, amma sonra fikrini dəyişib. Azərbaycan xalçaları ilə maraqlanıb, ən sonda ölkəmizdəki tolerantlıqdan yazmaq qərarına gəlib.

Ceyms Simit həmin yazını İngiltərə mətbuatında çap etdirmişdi. Yazının leytmotivini təşkil edən fikir, məncə, tolerantlığımıza münasibətdə ən obyektiv, dəqiq qiymət sayıla bilər. O yazır ki, Avropada heç kim yəhudilərə, müsəlmanlara inancına görə təzyiq göstərə bilməz. Çünki başqasının inancına hörmətlə yanaşmaq avropalı üçün qanunun tələbi, hüquqi normadır. Azərbaycanda da xristianlar, yəhudilər təzyiqə məruz qalmırlar. Ona görə ki, başqasının inancına hörmət göstərmək azərbaycanlılar üçün mənəvi məsələ və mədəni normadır.

Qısacası, tolerantlıq avropalıya görə hüquq, bizə görə isə mənəviyyat və mədəniyyət məsələsidir. O vaxt, düz, 10 il öncə Ceyms Simit israrla deyirdi ki, Azərbaycan nə zəngin enerji resursları, nə gözəl təbiəti, nə də sehrli xalçaları ilə dünyanı, xüsusilə Avropanı təəccübləndirə bilər. Amma lazım gəlsə, Azərbaycan xalqı yüksək dözümlülük mədəniyyəti, mənəvi zənginliyi ilə Avropaya dərs keçər...

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin bu il 10-11 mayda Almaniyanın Auqsburq şəhərində "Heydər Əliyev: gənclik, multikulturalizm" mövzusunda təşkil etdiyi konfransa gedərkən tədbirin proqramından və iştirakçılarından məlumatlı olsam da, düzü, hansı təəssüratla qayıdacağımı bilmirdim. Ancaq geri qayıdarkən ağlımdan yalnız bir fikir keçirdi ki, ingilis jurnalist yerdən göyə qədər haqlıdır: Azərbaycan multikulturalizminin Avropada təqdimatı, əslində, bizim gələcəyə qoyduğumuz ən böyük sərmayədir.

...Uğurlu nəticə yaxşı ideyanın gerçəkləşməsidir.

Ulu Öndər Heydər Əliyevin doğum günündə Auqsburq Universitetində "Azərbaycanın Gənc Dostları Klubu" ilə birgə konfrans keçirilməsi Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin ideyası idi. Böyük şəxsiyyətin doğum günündə ölkədə keçirilən ənənəvi tədbirlərdən fərqli olaraq Avropada, özü də gənclərin iştirakı ilə konfrans təşkil edilməsinin yeni, amma olduqca məsuliyyətli bir iş olduğunu hamı başa düşürdü. Üstəlik, vaxt məhdudiyyəti var idi. Cəmi bir ay ərzində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi səfərbər olmalı, danışıqlar aparılaraq Ausburq Universitetindən razılıq alınmalı, "Azərbaycanın Gənc Dostları Klubu"nun üzvü olan onlarla əcnəbi gəncin Ausburqa gedişi təmin edilməli, ən əsası, Heydər



Əliyevə həsr olunmuş konfrans ona və onun xidmətlərinə layiq səviyyədə keçirilməliydi.

"Azərbaycanın Gənc Dostları Klubu"nun üzvləri əsasən yay və qış multikulturalizm məktəbinin iştirakçıları olan tələbələrdir. Həmin tələbələr İndoneziyadan tutmuş Portuqaliyaya, Amerikadan tutmuş İsrailə, Rusiyaya qədər müxtəlif ölkələrin vətəndaşlarıdırlar. Ən önəmli məqamlardan biri odur ki, dünyanın nüfuzlu ali məktəblərində təhsil alan həmin gənclər Azərbaycanın həm dostları, həm də təbliğatçılarıdır. Onlar ölkəmizə, onun mədəniyyətinə yaxından bələddirlər, hətta "Azərbaycan multikulturalizmi" fənni ilə yanaşı, dilimizi də öyrənirlər. Həmin gənclərin arasında öz ölkəsində yüksəlmək perspektivi olan, beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də çalışmaq imkanı əldə edənlər var.

Təbii ki, konfransın yeri də təsadüfi seçilməmişdi. Almaniyanın ən nüfuzlu ali məktəblərindən olan Auqsburq Universitetində "Azərbaycan multikulturalizmi" tədris edilir. Həmçinin Auqsburq Avropada katoliklərlə protestantların anlaşma imzalayaraq bir arada yaşadıqları ilk tarixi məkan – multikultural şəhərdir. Belə bir şəhərdə Azərbaycanı, onun Liderini multikulturalizm müstəvisindən təqdim etmək müdrik qərar idi.




...Yaxşı ideyanı yaxşı komanda həyata keçirə bilər.

Kamal Abdullayevin müəyyənləşdirdiyi və ən xırda detallara qədər şəxsən nəzarət etdiyi, demək olar ki, gənclərdən ibarət kiçik bir komanda Auqsburqda qarşıya qoyulmuş məqsədləri tam reallaşdıra bildi. Həmin komanda - Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaşları otuzu keçməyən əməkdaşları iştirakçıların və məruzəçilərin viza məsələsindən tutmuş, otelə, konfransın keçirildiyi məkana, konfransın proqramına, mədəni tədbirlərə qədər bütün məsələləri ustalıqla həll etdi. Bu, yaradıcı təfəkkürün məhsulu olan uğurlu ideyanın gənclərin enerjisi sayəsində uğurla gerçəkləşməsi idi.

...Uğurun üçüncü şərti də var: ÜRƏK!

Qarşına qoyduğun məqsədə çatmaq üçün sevgini - ürəyini qoymalısan! Əks halda, yaxşı nəticə ala bilməzsən! Azərbaycanın Auqsburqdakı uğurunun bir təminatçısı da bax bu oldu. İstər Azərbaycandan, istərsə də digər ölkələrdən gələnlər səmimi idilər, onları Azərbaycana olan ortaq sevgi birləşdirirdi. Bunu görməmək mümkün deyildi.

Etiraf edək ki, avropalıların Azərbaycanla bağlı həqiqətləri başqasının dilindən eşitməsi daha effektlidir. Bu mənada Auqsburqdakı Azərbaycanı bizdən daha çox başqaları təqdim etdi: gürcü, amerikalı, polyak, eston, rus, alman və digərləri. Təsəvvür edin: Sofiya Universitetinin tələbəsi Momçil Şopov "Orta əsrlər Azərbaycan ədəbiyyatında multikulturalizm" mövzusunda məruzə edir. Yaxud İndoneziyanın Qadcah Mada Universitetinin tələbəsi İmas Xoyrun Nisa Fuciati "Azərbaycan Multikulturalizminin İndoneziyada tədrisi"ndən danışır. Bütün bunlar isə Azərbaycanda yox, Avropanın göbəyində - Almaniyada baş verir.

...Azərbaycanı layiqincə təmsil və təqdim etmək şərəfdir. Başqalarının Azərbaycanı layiqincə təmsil və təqdim etməsi isə uğurdur. Auqsburqdakı Azərbaycanı biz yox, BİZİMKİLƏR təqdim etdilər. Amma bu təkcə uğur deyil, həm də gələcəyimizə düşən işıqdır!..

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"

Mayın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi İli" çərçivəsində Tovuz Dövlət Sosial-İqtisadi Kollecində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.

Konfransı Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin direktoru Rizvan Qəmbərov açaraq gənclər arasında dini maarifləndirmə işlərinin aparılmasının vacibliyini qeyd edib. Bildirib ki, radikal dini təriqətlərin yayılmasının qarşısını almaq üçün gənclər elmə, təhsilə ciddi fikir verməli, geniş məlumatlı olmalıdırlar.

Tovuz RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Bəhruzər Rüstəmov rayondakı sabit dini durumdan, dinə dövlət qayğısının və bölgələrdə həyata keçirilən maarifləndirmə tədbirlərinin önəmindən danışıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, regionlarda keçirilən bu konfransların məqsədi dini radikalizmlə ideoloji müstəvidə mübarizənin aparılması,




ölkəmizdə tarixən mövcud olan tolerantlıq ənənələrinin gücləndirilməsi, eləcə də müxtəlif dinlərə və məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət, mehribanlıq və əməkdaşlıq şəraitində birgəyaşayış ənənələrinin daha da möhkəmləndirilməsi sahəsində həyata keçirilən kompleks tədbirlərin effektinin daha da artırılmasıdır.

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının önəmindən danışan Gündüz İsmayılov İslamı sülh, sabitlik və həmrəylik dini kimi səciyyələndirərək onun fəlsəfəsində insan humanizmi kimi vacib ideyanın yer aldığını vurğulayıb. Komitə sədrinin müavini bildirib ki, İslam həmrəyliyi geosiyasi dünyada gərginliklərin, münaqişə ocaqlarının artdığı dövrdə insanları nəcib, xeyirxah və işıqlı əməllərə çağıran təşəbbüsdür. G.İsmayılov İslam həmrəyliyinin terrorizmə, irqçiliyə, zorakılığa qarşı olduğunu, elmli, təhsilli və əxlaqlı cəmiyyət modelini dəstəklədiyini diqqətə çatdırıb. Sədr müavini İslam birliyinə nail olmaq, bu istiqamətdə uğur əldə etmək üçün ölkəmizdə yüksək səviyyədə təşkil olunan IV İslam Həmrəylik Oyunlarının kifayət qədər əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sonda kollecin müəllim-tələbə heyətinin mövzu ilə bağlı çoxsaylı sualları cavablandırılıb, təklif və mülahizələri dinlənilib.

# Bakıda və bölgələrdə "İslam Həmrəyliyi İli" çərçivəsində tədbirlər keçirilib

*Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Eyni zaamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində bir sıra tədbirlər keçirir. Bu qəbildən olan tədbirlər:*

***8 may*** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin



(DQİDK) Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Samux rayon Əhmədbəyli kənd Elton İsgəndərov adına tam orta məktəbdə "İslam həmrəyliyi İslamda birgəyaşayış ənənələrinə xidmət edir" mövzusunda;

***11 may*** – DQİDK və SOCAR-ın birgə təşkilatçılığı ilə Neft Kəmərləri İdarəsi və Təhlükəsizlik İdarəsinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə;

***16 may*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi,




Zaqatala RİH və hüquq-mühafizə orqanlarının birgə təşkilatçılığı ilə rayonun Yuxarı Çardaxlar kənd tam orta məktəbində "Məktəblilərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi" mövzusunda;

***17 may*** – DQİDK və Biləsuvar RİH-in birgə təşkilatçılığı ilə Biləsuvar rayonu 4 saylı tam orta məktəbdə "İslamda həmrəyliyə və tolerantlığa çağırış" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə İsmayıllı şəhər A.Aslanov adına 2 saylı tam orta məktəbdə "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda;

***25 may*** – Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Kollecin birgə təşkilatçılığı ilə "İslam və milli kimlik" mövzusunda baş tutub.

Tədbirlərdə Dövlət Komitəsinin, şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də digər dövlət qurumlarının əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayonun təhsil və mədəniyyət işçiləri, gənclər iştirak ediblər. Çıxışlarda qeyd olunub ki, dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" və onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməsi bütün dünyaya "bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq" çağırışıdır. Bu, humanist və sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Çıxışlarında dini radikalizmin mahiyyəti, onun milli-mənəvi və dini dəyərlərimizə qarşı olan zərərli təsirləri barədə də məlumat verən məruzəçilər dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə mütəmadi görüşlərin əhəmiyyətini vurğulayıb, ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının regional və beynəlxalq müstəvidə sabitliyin qorunmasındakı önəmindən danışıb, gənclərə radikal dini cərəyanların təsirinə düşməmək üçün müvafiq tövsiyələrini veriblər.



Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Maarifləndirmə tədbirləri uğurla davam etdirilir

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin may ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*



***4 may*** – Quba rayon Xucbala kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində "Milli mənəvi dəyərlərimiz və müasirlik" mövzusunda;

***5 may*** – Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində Salmanbəyli kənd Əlfi Məmmədov adına tam orta məktəbdə;

***8 may*** – Masallı rayonu Şərəfə kənd məscidi dini icmasının "İslam həmrəyliyi və vəhdət" layihəsi çərçivəsində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda;

***10 may*** – Kürdəmir şəhər (1) məscidi dini icması tərəfindən Kürdəmir şəhər Gənclər Evində "İslam təfri-



qə və xürafata yox deyir" mövzusunda;

***11 may*** – Sabirabad rayon Əsgərbəyli kəndi "İmam Əli" adına kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində Sabirabad rayon Əsgərbəyli kənd şəhid Murad Hüseynov adına tam orta məktəbdə "Gənclərin zərərli vərdişlərdən çəkindirilməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda; Sumqayıt şəhəri Sumqayıt stansiyası yaşayış massivi məscidi "Vəhdət" dini icmasının "İslam həmrəyliyi - dini vəhdətə çağırış" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclər" mövzusunda;

***12 may*** – "Daşkəsən şəhər cümə məscidi" dini icmasının "Azərbaycan tolerantlığın məskənidir" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda; Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidi dini icmasının "İslam Həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidində "Dövlət-din münasibətlərinin formalaşmasında Heydər Əliyevin rolu" mövzusunda; Lerik rayonu Lüləkəran kənd məscidi dini icmasının "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" layihəsi çərçivəsində "İslam dünyasında dini radikalizmin və ekstremizmin yaranma səbəbləri və fəsadları" mövzusunda;

***15 may*** – Şəhid Vüqar Yarməmmədov adına Kürdəmir şəhər 1 saylı tam orta məktəbin akt zalında Kürdəmir şəhər (1) məscidi dini icması tərəfindən "Bəşəriyyətin təhdidlərdən çıxış yolu – həmrəylik" mövzusunda; Xəzər rayonu Binə qəsəbəsi "İmam Rza" məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin rolu" layihəsi



çərçivəsində; Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində "İslamda vətən sevgisi" mövzusunda;

***16 may*** – Şamaxı rayonu Məlikçobanlı kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda; Bayan kənd məscidi dini icmasının "Dini radikalizm İslam həmrəyliyinə və birgəyaşayış ənənəsinə təhdiddir" layihəsi çərçivəsində Oğuz rayon Mehdi Kərimov adına Bayan kənd tam orta məktəbdə; Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Pirallahı rayonu "Pirallahı" məscidi dini icmasının "İslam həmrəyliyi-

davamı səh. 13

# Maarifləndirmə tədbirləri uğurla davam etdirilir



əvvəli səh. 12 nin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində;

***18 may*** – Abşeron rayonu Digah qəsəbə məscidi dini icmasının "Ailə milli-mənəvi dəyərlərimizin daşıyıcısıdır" layihəsi çərçivəsində "İslam həmrəyliyi və dini radikalizm təhlükəsi" mövzusunda; Lerik rayonu Lüləkəran kənd məscidi dini icmasının "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə əhəmiyyəti" layihəsi çərçivəsində; Suçma kənd məscidi dini icmasının "İslam dinində mövhumata və xurafata yer yoxdur" layihəsi çərçivəsində Şəki rayon Suçma kənd tam orta məktəbdə;

***19 may*** – Masallı rayonu Şərəfə kənd məscidi dini icmasının "İslam həmrəyliyi və vəhdət" layihəsi çərçivəsində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; İmişli şəhər məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "İslami dəyərlər milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir" mövzusunda;

***23 may*** – Şamaxı rayonu Məlikçobanlı kənd "Cümə" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslamda tolerantlıq və vəhdət" mövzusunda; Neftçala rayonu Xolqarabucaq kəndi "İmam Hüseyn" məscidi dini icmasının "Dini ekstremizmin və radikalizmin multikultural cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində; Oğuz rayonu Bayan kənd məscidi dini icmasının "Dini radikalizm İslam həmrəyliyinə və birgəyaşayış ənənəsinə təhdiddir" layihəsi çərçivəsində Oğuz rayonu Filfilli kənd tam orta məktəbində;

***24 may*** – Pirallahı rayonu "Pirallahı" məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" layihəsi çərçivəsində; Zaqatala rayonu Muxax kənd məscidi dini icmasının "Keçmişdən günümüzə Azərbaycanda İslam həmrəyliyi ənənələri" layihəsi çərçivəsində "İslam həmrəyliyinin tolerant mühitin formalaşmasındakı rolu" mövzusunda;

***25 may*** – Salyan şəhəri Mərkəzi Hacı Tağı məscidi dini icmasının "İslam dinində tolerant və multikultural dəyərlər" layihəsi çərçivəsində baş tutub.



Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi İslam aləmində həmrəyliyə, birliyə töhfə verəcəkdir. Həmçinin məruzəçilər dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.






## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### Dəyişiklik

**Avropa Yəhudilərinin Bakı dini icması**
**Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A3 – 131**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zelmanoviç Gennadiy Konstantinoviç, Tsukerman `Lazar Lvoviç, Rubinçik Semyon Yefimoviç, Breskin Yuliy İliç oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Pitelman Arnold Qriqoryeviç, Faynşteyn İqor Vitalyeviç, Qarber Aleksandr Aronoviç, Leznik Yefim Peysyayeviç, Hüseynov Vladimir Lvoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Zelmanoviç Gennadiy Konstantinoviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Şarovskiy Aleksandr Yakovleviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

***Dəyişikliklərin qeydiyyat tarixi: 28 aprel 2017-ci il***

### Qeydiyyat

**Kürdəmir rayonu Qarasu kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 may 2017-ci il**
**Qeydiyyat №-si: 100117A-739**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**

Hüquqi ünvanı: Kürdəmir rayonu, Qarasu kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Babakişi Ağakişi oğlu Nurməmmədov

### Ləğv olunan dini icmalar

**Suraxanı rayonu Bülbülə qəsəbəsi dini icması**
**Qeydiyyat tarixi: 07.02.2002-ci il**
**Qeydiyyat №-si: 61**

Suraxanı rayonu Bülbülə qəsəbəsi dini icması təsisçilərinin 11.04.2017-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

***Ləğv olunması: 17 may 2017-ci ildə qeydə alınıb.***

**Bakı şəhəri Suraxanı rayonu Bülbülə qəsəbəsi "Məhəmməd Sadiq" ziyarətgahı**
**Qeydiyyat tarixi: 06.02.2002-ci il**
**Qeydiyyat №-si: 49**

Suraxanı rayonu Bülbülə qəsəbəsi "Məhəmməd Sadiq" ziyarətgahı dini icması təsisçilərinin 11.04.2017-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 18 may 2017-ci ildə qeydə alınıb.**

### Elanlar

Naftalan şəhər məscidi dini icmasının (1308N1 – 476 nömrəli, 15.05.2008-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 15.05.2017-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Goranboy rayon Dəliməmmədli şəhəri "Həzrəti Əli" məscidi dini icması (1307Go1-399 nömrəli, 04.07.2007-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 18.05.2017-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Lənkəran rayon Şilavar kəndi "İmam Rza" məscidi dini icması (1308Lə1-470 nömrəli, 29.04.2008-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22.05.2017-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

# Bölgə xəbərlərimiz

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlər zamanı ölkəmizdə multikultural və tolerant mühit, dini radikalizm və ona qarşı mübarizənin əhəmiyyəti haqqında geniş məruzələr söylənilir, dövlət-din münasibətləri barəsində məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə işlərinə cəlb olunması məqsədi ilə faydalı mövzularda çıxışlar olur. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfranslar, seminar-müşavirələr, treninqlər DQİDK-nın təşkilatçılığı ilə, o cümlədən Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində həyata keçirilən tədbirlər:*



***4 may*** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Qullar kənd şəhid E.Əliqayev adına 2 saylı tam orta məktəbində "Milli dəyərlərimizin qorunmasında gənclərin rolu" mövzusunda; DQİDK və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Masallı şəhər Heydər Əliyev Mərkəzində "Narkomaniya və zərərli vərdişlərlə mübarizə yolları" mövzusunda; DQİDK və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən birgə imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Astara şəhəri M.Ə.Sabir adına 1 saylı tam orta məktəbində "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında maarifləndirmənin əhəmiyyəti" mövzusunda;

***5 may*** – DQİDK və Neftçala RİH-in birgə təşkilatçılığı ilə rayonun 2 saylı tam orta məktəbində "Gəncləri narkotik vasitələrdən və digər zərərli vərdişlərdən çəkindirmək: bu yolda dini icma və din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba, Qusar və Xaçmaz rayonları üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Quba şəhəri "Ərdəbil" məscidində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş "Heydər Əliyev irsi milli-mənəvi dəyərlər kontekstində" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində "İslam həmrəyliyi sülhə çağırışdır" mövzusunda;

***10 may*** – Şəki İslam (hafizlik) Kollecində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş tədbir;

***12 may*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir şəhər 4 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə Mingəçevirdə "Gənclərin radikal meyillərdən qorunması" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki ŞİH, DTX-nın Şəki şəhər şöbəsinin və "ARB Şəki" televiziya kanalının birgə təşkilatçılığı ilə Şəkidə "Dini ekstremizm və terrorizmlə mübarizə" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə Bığır kənd Mədəniyyət Evində "İslam Həmrəyliyinin əhəmiyyəti" mövzusunda;



***15, 16 may*** – DQİDK və Dövlət Sərhəd Xidmətinin (DSX) birgə Tədbirlər Planına uyğun olaraq, Lənkəran və Göytəpə Sərhəd dəstələrinin qarnizonlarında "Qeyri-ənənəvi dini cərəyanlar və onların fəaliyyət metodları", "Dini ekstremizm və onun təbliğat metodları" mövzularında;

***17 may*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in birgə təşkilatçılığı ilə Ağdaş rayon Peşə məktəbində "Gənclərin radikal təsirlərdən qorunması" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 27 nömrəli tam orta məktəbdə "Düşüncə tariximizdə elm və dinə münasibət" mövzusunda; DQİDK və Zəngilan RİH-in birgə təşkilatçılığı ilə Şirvan şəhərində yerləşən Zəngilan rayonu 3 saylı orta məktəbdə "Milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolu" mövzusunda; DQİDK, Pirallahı RİH və Dövlət Təhlükəsizliyi Xidməti Xəzər rayon şöbəsinin Pirallahı rayon bölməsinin birgə təşkilatçılığı ilə "Radikalizm, ekstremizm və terrorizmə qarşı mübarizədə vətəndaşların rolu" mövzusunda; DQİDK və Neftçala RİH-in birgə təşkilatçılığı ilə Neftçala rayonu 3 saylı tam orta məktəbdə "İslamın birlik və bərabərliyə verdiyi əhəmiyyət" mövzusunda;

***18 may*** – Sumqayıt şəhərində "Zərərli dini cərəyanlar və onların mahiyyəti" mövzusunda; DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Qaradağ rayonu, Qobustan qəsəbəsində yerləşən Azad Rzayev adına 223 saylı tam orta məktəbdə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir şəhəri Texniki-humanitar liseyin birgə təşkilatçılığı ilə "Gənclərin radikal meyillərdən qorunması" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "İslam dini və müasir



Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar RİH-in birgə təşkilatçılığı ilə Ucar rayon Rəstəcə kənd tam orta məktəbində "Dini radikalizm İslam həmrəyliyinə təhdiddir" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə RİH-in birgə təşkilatçılığı ilə Bərdə rayon Otuzikilər kənd orta məktəbində "İslam Həmrəyliyinin əhəmiyyəti" mövzusunda;

***19 may*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab RİH və rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Zərdab şəhər 2 saylı tam orta məktəbdə "Dini radikalizmlə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK və Hacıqabul RİH-in birgə təşkilatçılığı ilə Hacıqabul rayon 1 saylı tam orta məktəbdə "İslam Həmrəyliyi İli" mövzusunda;

***22 may*** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Qusar Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Qusar rayonu Çiləgir kənd tam orta məktəbində "Narkomaniya və dini radikalizmin sosial təhlükəsi və doğurduğu fəsadlar" mövzusunda; DQİDK və Qusar RİH-in birgə təşkilatçılığı ilə Qusar rayonunun Avaran kəndində dini radikalizmlə mübarizənin yollarına həsr olunmuş seminar-müşavirə;

***23 may*** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində Kürdəmir şəhər Heydər Əliyev Mərkəzində "Həmrəylik və insan hüquqları" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı RİH və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Şamaxı rayonu Sabir qəsəbə tam orta məktəbində "Cəmiyyətimizin sağlamlığı naminə narkomaniyaya qarşı birgə mübarizənin vacibliyi" mövzusunda;

***24 may*** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Talalar kənd 1 saylı tam orta məktəbdə "İnsan hüquqlarının qorunması aylığı" çərçivəsində "İslam həmrəyliyi dini etiqad azadlığının təzahürüdür" mövzusunda;




***25 may*** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir şəhəri 13 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Gənclərin tərbiyəsində İslam həmrəyliyinin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in birgə təşkilatçılığı ilə rayon İcra Hakimiyyətində Ramazan ayının başlanması münasibətilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə Ağdaş rayonu Hacı İsmayıl məscidində Ramazan ayının başlanması ilə əlaqədar olaraq baş tutub.

Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş aparaq ölkəmizi bu cür qarışıqlıqlardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.

Həmçinin çıxışlarda bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğu qeyd edilərək mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.

Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və DQİDK-nın sifarişi ilə çəkilən dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.



# RAMAZAN AYININ GÜNDƏLİK DUALARI

***---Orucun niyyəti:*** *Ramazan ayının orucunu tuturam qürbətən iləllah.*

***İftardan qabaq oxunan dua:*** *İlahi, Sənin uçün oruc tutdum. Verdiyin ruzi ilə iftarımı açıram və Sənə təvəkkül edirəm. Orucumu qəbul et. Həqiqətən, Sən duaları eşidən və hər şeyi bilənsən. Ey geniş məğfirət Sahibi, günahlarımı bağışla!*

**1-ci gün:** İlahi, mənim orucumu oruc tutanların orucundan, namazımı gecə-gündüz namaz qılanların namazından hesab et, məni qəflət yuxusundan oyat, bu ayda günahımı bağışla, ey Aləmlərin Rəbbi, məni əfv et, ey günahkarları əfv edən Allah!

**2-ci gün:** İlahi, məni bu ayda Öz rizana yaxınlaşdır, qəzəbindən və cəzalarından uzaq et. Ey Rəhimlilərin Rəhmlisi, məni bu ayda Öz ayələrini oxumağa müvəffəq et!

**3-cü gün:** İlahi, bu ayda mənə güclü ağıl və ayıqsayıqlıq ver, pis şeylərdən və qafillikdən uzaq et. Ey səxavətlilərin Səxavətlisi, Öz səxavətin xatirinə bu ayda nazil etdiyin hər xeyirdən mənim də nəsibimi ver!

**4-cü gün:** İlahi, bu ayda mənə Sənin (oruc tutmaq barədə) əmrini yerinə yetirməyə qüvvət ver, Səni zikr etməyin şirinliyini mənə daddır, səxavətinə görə Sənə şükr etməyə məni ruhlandır, məni bu ayda Özün hifz et və qoru, ey bəsirətlə nəzər edən Allah!

**5-ci gün:** İlahi, bu ayda məni günahlarının bağışlanmasını istəyənlərdən qərar ver, Öz saleh va itaətkar bəndələrindən, Özünə yaxınlaşdırdığın dostlarından et, mehribanlığın xatirinə, ey mərhəmətlilərin Mərhəmətlisi!

**6-cı gün:** İlahi, bu ayda məni Sənə asiliyə məruz qoymaqla rüsvay etmə, Öz cəza qamçınla məni vurma, Öz lütfün və köməyin sayəsində Sənin qəzəbini doğuracaq şeylərdən bu ayda məni uzaq et, ey rəğbət bəsləyənlərin Rəğbətlisi!

**7-ci gün:** İlahi, bu ayın orucunu tutmaqda va namazını qılmaqda mənə kömək ol, məni səhvlərdən və günahlardan uzaqlaşdır. Bütün bu ayı Səni zikr etməyi mənə qismət et, Öz köməyin sayəsində, ey azmışları doğru yola çıxaran Allah!

**8-ci gün:** İlahi, bu ayda məni yetimlərə münasibətdə mərhəmətli olmağı, çörək verməyi, sülhpərvər olmağı, hörmətli adamlarla oturub-durmağı qismət elə, Öz qüdrətin sayəsində, ey ümid edənlərin Pənahı!

**9-cu gün:** İlahi, bu ayda mənə Öz geniş mərhəmətindən pay ver, Öz açıq-aşkar dəlil-sübutlarınla yol göstər, Səni razı salacaq bütün şeylərə doğru məni apar, Öz məhəbbətin xatirinə, ey arzusu olanların Pənahı!

**10-cu gün:** İlahi, bu ayda məni Öz həsənatlarının sayəsində Sənə təvəkkül edənlərdən, Sənin yanında bu ayda uğur qazananlardan və Özünə yaxınlardan qərar ver, Öz yaxşılığınla, ey istək sahiblərinin son Qayəsi!

**11-ci gün:** İlahi, bu ayda mənə Öz köməyin sayəsində yaxşılıq etməyi sevdir, məndə bu ayda pisliyə və asiliyə ikrah doğur, qəzəbini və cəhənnəm odunu məndən uzaq et, ey xilas olmaq istəyənlərin Xilaskarı!

**12-ci gün:** İlahi, bu ayda məni həya və iffətlə zinətləndir, itaət və razılıq libasını geyindir. Bu ayda məni ədalət və insaf yolu ilə apar, qorxduğum hər şeydən məni hifz et. Səni Öz ismətinə and verirəm, ey (ürəklərində) Allah qorxusu olanların Himayədarı!

**13-cü gün:** İlahi, bu ayda məni natəmizlik və iyrənc şeylərdən pak et, alın yazısı ilə məni bu ayda olacaqlara səbirli et və Öz köməyinlə məni bu ayda təqvaya və əməlisaleh insanlarla dostluğa müvəffəq et, ey miskinlərin gözlərinin işığı Allah!

**14-cü gün:** İlahi, bu ayda səhvlərimi mənə irad tutma, məni səhvlərdən və büdrəmələrdən qoru, bəla və dərdlərə düçar etmə, and verirəm izzətinə, ey müsəlmanların İzzəti, Şərəfi Olan Allah!

**15-ci gün:** İlahi, mənə bu ayda təqvalı olanların itaətini bəxş et, qəlbimi bu ayda itaət edənlərə məxsus tövbə üçün geniş aç. Sən özün aman ver, ey ürəklərində Allah qorxusu olanların Ümidgahı!

**16-cı gün:** İlahi, bu ayda məni əməlisaleh adamlarla rastlaşmağa müvəffəq et və məni şər adamlarla rastlaşmaqdan uzaq et, Öz rəhmətinlə mənə bu ayın xatirinə axirətdə qərar evində sığınacaq ver, Allahlığın xatirinə ey aləmlərin Rəbbi!

**17-ci gün:** İlahi, mənə bu ayda saleh əməllərə doğru yol göstər, ehtiyac və amallarımı yerinə yetir, ey etdikləri barədə izaha və suala ehtiyacı olmayan, ey aləmlərin batinində olanları bilən! Mühəmmədə (s) və onun pak ailəsinə salavat və rəhmət bəxş et!

**18-ci gün:** İlahi, məni bu ayda Öz səhərlərinin bərəkəti üçün oyat, qəlbimi Öz işıqlarının ziyası ilə nurlandır, bütün əzalarımı o nurun ziyasında sabit qıl. Səni öz nuruna and verirəm, ey ariflərin qəlblərini işıqlandıran Allah!

**19-cu gün:** İlahi, bu ayın bərəkətindən nəsibimi bol et, mənim yolumu xeyir-bərəkətlərinə doğru asanlaşdır və məni Öz yaxşılıqlarını qəbul etməkdən məhrum etmə, ey açıq-aşkar haqqa hidayət edən Allah!

**20-ci gün:** İlahi, bu ayda mənim üçün cənnət qapılarını aç, cəhənnəm qapılarını bağla, məni bu ayda Quran tilavətinə müvəffəq et, ey möminlərin qəlblərinə rahatlıq salan Allah!

**21-ci gün:** İlahi, bu ayda Sənin rizanı qazanmaq üçün mənə yol göstər, şeytanın məni azdırması üçün yol qoyma, Cənnəti mənim üçün mənzil və dinclik yeri qərar ver, ey möhtac olanların ehtiyaclarını ödəyən Allah!

**22-ci gün:** İlahi, bu ayda fəzilət qapılarını üzümə aç, mənə Öz bərəkətlərini nazil et, məni bu ayda Sənin razılığına səbəb olacaq işlərə müvəffəq et, Öz cənnətlərinin ən gözəl guşələrində sakin et, ey ehtiyac içində olanların dualarını müstəcab edən Allah!

**23-cü gün:** İlahi, bu ayda mənim günahlarımı yu (pak et), məni eyblərdən təmizlə, qəlbimi ürəklərdəki təqva qorxusu ilə imtahana çək, ey günahkarların büdrəmələrini bağışlayan Allah!

**24-cü gün:** İlahi, bu ayda Səndən Səni razı salacaq şeyləri diləyirəm, Səni incidəcək şeylərdən Sənə pənah gətirirəm. Bu ayda məni Sənə itaət etməyə, Sənə asilik etməməyə müvəffəq etməyini diləyirəm, ey diləyənlərə səxavət göstərən Allah!

**25-ci gün:** İlahi, bu ayda məni Sənin dostlarını sevən, düşmənlərinə düşmən olan və peyğəmbərlərinin sonuncusunun yolu ilə gedənlərdən qərar ver, ey peyğəmbərlərin qəlblərini məsum qılan Allah!

**26-cı gün:** İlahi, bu ayda mənim səylərimi mükafata layiq qıl, günahlarımı bağışla, əməllərimi məqbul, eyblərimi üstü örtülmüş qərar ver, ey eşidənlərin Eşidəni!

**27-ci gün:** İlahi, bu ayda mənə Qədr gecəsinin fəzilətini əta et, çətin işlərimi asanlaşdır, üzrlərimi qəbul et, günahları və günah yükünü üstümdən götür, ey Öz saleh bəndələrinə mehriban olah Allah!

**28-ci gün:** İlahi, bu ayda nafilə əməllərdən mənim nəsibimi bol et, qiyamət günü suallarına hazır olmaq üçün mənə lütf göstər, vəsilələr arasında sənə yetişmək üçün vəsiləmi bu ayda yaxın et, ey israrlıların dualarını eşitməkdən məmnun olah Allah!

**29-cu gün:** İlahi, məni bu ayda Öz rəhmətinlə əhatə et, mənə müvəffəqiyyət və ismət müyəssər et, qəlbimi töhmət zülmətlərindən pak et, ey Öz mömin bəndələrinə mehribanlıq göstərən Allah!

**30-cu gün:** İlahi, ağamız Mühəmməd və onun pak ailəsi xatirinə bu aydakı orucumu Sənin və peyğəmbərinin razı qaldığı şəkildə qəbul et! Dinimizin etiqat təməllərini möhkəm qərar ver. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ



2017 - 1438 | RAMAZAN AYININ TƏQVİMİ | Bakı şəhəri

| Hicri 1438 | Miladi 2017 | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 01 Ramazan | 27 May | 03:19 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:00 | 20:17 | 21:34 | 23:47 |
| 02 Ramazan | 28 May | 03:18 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:01 | 20:17 | 21:36 | 23:47 |
| 03 Ramazan | 29 May | 03:17 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:02 | 20:18 | 21:37 | 23:46 |
| 04 Ramazan | 30 May | 03:16 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:03 | 20:19 | 21:38 | 23:46 |
| 05 Ramazan | 31 May | 03:15 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:03 | 20:20 | 21:39 | 23:46 |
| 06 Ramazan | 01 İyun | 03:14 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:04 | 20:21 | 21:40 | 23:46 |
| 07 Ramazan | 02 İyun | 03:14 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:05 | 20:21 | 21:41 | 23:46 |
| 08 Ramazan | 03 İyun | 03:13 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:06 | 20:22 | 21:42 | 23:46 |
| 09 Ramazan | 04 İyun | 03:12 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:06 | 20:23 | 21:43 | 23:46 |
| 10 Ramazan | 05 İyun | 03:12 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:07 | 20:24 | 21:44 | 23:46 |
| 11 Ramazan | 06 İyun | 03:11 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:08 | 20:24 | 21:45 | 23:46 |
| 12 Ramazan | 07 İyun | 03:10 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:08 | 20:25 | 21:46 | 23:47 |
| 13 Ramazan | 08 İyun | 03:10 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:09 | 20:25 | 21:46 | 23:47 |
| 14 Ramazan | 09 İyun | 03:09 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:09 | 20:26 | 21:47 | 23:47 |
| 15 Ramazan | 10 İyun | 03:09 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:10 | 20:27 | 21:48 | 23:47 |
| 16 Ramazan | 11 İyun | 03:09 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:10 | 20:27 | 21:49 | 23:47 |
| 17 Ramazan | 12 İyun | 03:08 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:11 | 20:28 | 21:49 | 23:47 |
| 18 Ramazan | 13 İyun | 03:08 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:11 | 20:28 | 21:50 | 23:47 |
| 19 Ramazan | 14 İyun | 03:08 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:12 | 20:29 | 21:50 | 23:47 |
| 20 Ramazan | 15 İyun | 03:08 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:12 | 20:29 | 21:51 | 23:47 |
| 21 Ramazan | 16 İyun | 03:08 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:13 | 20:29 | 21:51 | 23:48 |
| 22 Ramazan | 17 İyun | 03:08 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:13 | 20:30 | 21:52 | 23:48 |
| 23 Ramazan | 18 İyun | 03:08 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:13 | 20:30 | 21:52 | 23:48 |
| 24 Ramazan | 19 İyun | 03:08 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:14 | 20:30 | 21:53 | 23:48 |
| 25 Ramazan | 20 İyun | 03:08 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:14 | 20:31 | 21:53 | 23:48 |
| 26 Ramazan | 21 İyun | 03:08 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:14 | 20:31 | 21:53 | 23:49 |
| 27 Ramazan | 22 İyun | 03:08 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:14 | 20:31 | 21:53 | 23:49 |
| 28 Ramazan | 23 İyun | 03:08 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:14 | 20:31 | 21:53 | 23:49 |
| 29 Ramazan | 24 İyun | 03:09 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:15 | 20:31 | 21:53 | 23:49 |
| 30 Ramazan | 25 İyun | 03:09 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:15 | 20:32 | 21:54 | 23:50 |

Şəvval ayının 1-i (26 iyun) Fitr bayramıdır!

CƏMİYYƏT və DİN
№ 5 (310) / MAY 2017-ci il

# Norveç Qaçqınlar Şurası: 2016-cı ildə 31 milyondan çox insan qaçqın vəziyyətinə düşüb



2016-cı ildə dünyanın müxtəlif ölkələrində hərbi əməliyyatlarla əlaqədar 31 milyondan çox insan öz evlərini tərk etməyə məcbur olub. Norveç KİV-ləri bu xəbəri Norveç Qaçqınlar Şurasının (NRC) yeni məruzəsinə istinadla yayıblar.

Şuranın məlumatına əsasən, qaçqınların sayına görə birinci yeri Konqo Demokratik Respublikası tutur: bu ölkədən 922 mindən çox insan qaçıb. Suriyanı tərk edənlərin sayı təqribən 824 min nəfər olub. Qaçqınların sayına görə üçüncü yeri İraq tutur. Mütəxəssislərin hesablamalarına görə, keçən il bu ölkəni 659 min nəfər tərk edib.

Məruzədə göstərilir ki, qaçqınların sayına görə sonrakı yerləri Əfqanıstan, Nigeriya və Yəmən tutur.

Yeni hesabatda o da qeyd edilir ki, keçən il təbii fəlakətlərə məruz qalmış 24 milyon nəfərin çox hissəsi öz evlərini tərk edib. Məruzə müəllifləri vurğulayırlar ki, təbii fəlakətlərlə əlaqədar öz evlərini itirmiş insanların sayının daha da artması ehtimalı yüksəkdir. Bu, iqlim dəyişmələrinin gələcəkdə də davam etməsi ehtimalı ilə bağlıdır.

# Türkiyədə dünyanın ən əsrarəngiz Əbabil quşu tapılıb

Çinin Sincan-Uyğur muxtar rayonunun hökuməti yeni doğulan körpələrə qoyulması qadağan olunan adların siyahısını hazırlayıb.



Interfax informasiya agentliyi xəbər verir ki, qadağa İslam dini ilə bağlı olan İslam, Quran, Səddam, Məkkə və bu kimi digər adlara aiddir. Həmin adları daşıyan uşaqların dövlət səhiyyə və təhsil sistemlərinə girişinə icazə verilməyəcək.

Böyük Britaniyanın "The Guardian" qəzetinin məlumatına əsasən, ölkənin 23 milyonluq müsəlman icmasının təxminən yarısı Sincan-Uyğur muxtar rayonunda yaşayır. Bir qədər əvvəl regionun hökuməti qadınlara niqab taxmağı, kişilərə isə qeyri-tipik saqqal saxlamağı qadağan etmişdi.

Qadağan olunan adların tam siyahısı hələ dərc edilməsə də, artıq hüquq müdafiəçilərinin tənqidinə məruz qalıb. "Human Rights Watch" təşkilatının Çin bölməsinin direktoru Sofi Riçardsonun sözlərinə görə, belə tədbirlər insanların etiqad azadlığının "kobud pozulmasıdır".

# "Google" şirkəti itmiş smartfonların axtarışı üçün mobil proqram təqdim edib

"Google" şirkəti itmiş smartfonların axtarışı üçün nəzərdə tutulmuş "Find My Device" mobil proqramını təqdim edib. Proqramı "Google Play" internet mağazasından yükləmək mümkündür.

"Find My Device" mobil tətbiqi "Find My iPhone" xidmətinin analoqudur. Bu proqram itmiş və ya oğurlanmış smartfonların axtarışı üçün nəzərdə tutulub. İstifadəçilər qurğuda zəng funksiyasını işə sala, blok edə, məsafədən vacib məlumatı silə və ya cihazın yerləşdiyi yerə xəritədə baxa bilərlər.

İstifadəçi telefonunu mənzildə tapa bilmədiyi halda "Find My Device" mobil tətbiqi zəng funksiyasını aktivləşdirir. Bu, qurğunu tez tapmağa imkan verəcək. Mobil qurğu küçə və ya restoranda itirildiyi halda onun olduğu yerə xəritədə baxmaq olar.

İtmiş və ya oğurlanmış smartfon və ya planşeti geri qaytarmaq mümkün olmadıqda ən azı məxfi informasiyanı qorumaq olar. "Find My Device" mobil proqramı telefondakı faylları uzaq məsafədən silməyə imkan verir.

## Yadigar söz

*Xəlil Cübran,*
*Livan yazıçısı*

**Hiss və ağıl həyat gəmisinin yelkəni və sükanı kimidir; biri hərəkətə gətirir, o biri istiqamətləndirir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (May -2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# UNICEF: uşaq miqrasiyası rekord həddə çatıb

Son 5 ildə böyüklərin müşayiəti olmadan hərəkət edən yetkinlik yaşına çatmamış qaçqın və miqrantların sayı 5 dəfə artıb. Bu məlumat BMT-nin UNICEF uşaq fondunun məruzəsində əksini tapır.

Euronews telekanalı xəbər verir ki, məruzəyə əsasən 2010-2011-ci illərdə dünyanın 80 ölkəsində 66 min belə uşaq qeydiyyatdan keçdiyi halda, son iki ildə onların sayı 300 min nəfərə çatıb: "Biz təcrübəmizə əsaslanaraq deyə bilərik ki, Şimali Afrikada, Mərkəzi Amerikada, Asiya və Avropanın bir sıra ölkələrində çox sayda uşaq statistik məlumatlara daxil edilmir. Buna görə də 300 min rəqəmi çox güman ki, aysberqin görünən tərəfidir".

"Böyük yeddiliyin" İtaliyada keçiriləcək sammiti ərəfəsində UNICEF dünya liderlərini miqrant uşaqların müdafiəsi üzrə proqramı təsdiqləməyə çağırıb. Proqram əsasən uşaqlar üzərində zorakılıq hallarının və onların istismarının qarşısının alınması, həbsdə saxlanmasına son qoyulması, habelə təhsil, səhiyyə və digər xidmətlərə girişlərinin təmin olunması üzrə tədbirlər görülməsini nəzərdə tutur.

# Çin Yerin peykini məskunlaşdırmaq üçün "Ay kəndi" laboratoriyasını hazırlayıb



Çinin Milli Kosmik İdarəsi Yerin peykini məskunlaşdırmaq üçün hazırlanan 160 kvadratmetr sahəsi olan "Ay kəndi" laboratoriyasını təqdim edib. Bu laboratoriyada gələcək astronavtların uzun müddət Ayda yaşamaq qabiliyyətləri yoxlanılacaq.

"Ay kəndi" kiçik şəhər mənzilini xatırladan bir neçə yaşayış otağından ibarətdir. Dörd könüllü tələbədən ibarət iki qrup bir il müddətində burada yaşayacaq. Astronavtları qida ilə təmin etmək üçün bazada istixana və "mini-ferma" quraşdırılıb.

Çin yaxın 20 ildə Ayda analoji orbital baza yaratmaq niyyətindədir. Bu iddialı planı həyata keçirmək üçün Avropa Kosmik Agentliyi ilə danışıqlar aparılır. "Ay kəndi" müştərək Avropa-Çin layihəsi də ola bilər.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894